RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 167 (9912) 12 avqust 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Kasım-Jomart Tokayev İlham Əliyevə zəng edib



Avqustun 10-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan Prezidenti Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında əldə olunmuş razılaşmalar münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib. Kasım-Jomart Tokayev bu nəticələrin tarixi əhəmiyyət daşıdığını qeyd edərək, onların regionda hərtərəfli əməkdaşlıq üçün imkan yaradacağına ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür edərək, Amerika Birləşmiş Ştatlarında Azərbaycan ilə Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətini vurğulayıb. Bu xüsusda göstərdiyi dəstəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də deyib.

Dövlətimizin başçısı Qazaxıstanın ötən ilin mayında sülh danışıqları çərçivəsində Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri arasında aparılan danışıqlara evsahibliyi etməsinə və bu prosesə töhfəsinə görə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

# İLHAM ƏLİYEV YOLU



## Zəfər diplomatiyasının müəllifi, 200 illik münaqişəyə son qoyan Lider

Zəngəzur dəhlizi məsələsi İlham Əliyevin dahi gedişlərindən biridir. Aydındır ki, bu təşəbbüslə Laçın yoluna qarşı əks balansın yaradılması da nəzərdə tutulurdu. Ermənistan sadəlövhcəsinə düşünürdü ki, Azərbaycan Qarabağda öz məqsədlərinə tam nail olandan sonra Zəngəzur dəhlizini unudacaq, sakitləşəcək. Amma əksinə oldu.

İlham Əliyevə dəfələrlə bu barədə sual veriləndə, Prezident konkret olaraq deyirdi ki, bu yol açılacaq! Dedi və etdi də...

Təxminən 5 ildir ki, Ermənisan məsələni yubatmağa çalışırdı. Bu ölkə "Sülh kəsişməsi" adlı utopik layihə irəli sürərək oyunbazlıqla məşğul olmasına baxmayaraq, Azərbaycan ən böyük məqsədlərindən birinə - Zəngəzur dəhlizinin açılmasına nail olur. "Tramp yolu" adlanmasına baxmayaraq, hamı başa düşür ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir. Azərbaycan ilk gündən təkid etdiyi maneəsiz gedişə nail olur. Ona görə də bu yolun bizim üçün bir adı var - İlham Əliyev yolu.

Həm Prezident, həm də Ali Baş Komandan kimi ölkəmizə rəhbərlik etdiyi ilk gündən İlham Əliyev bütün tribunalardan Azərbaycan xalqının heç vaxt işğalla barışmayacağını bəyan edirdi, "Nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq", - deyirdi və belə də oldu.

Məhz İlham Əliyevin diplomatiyası sayəsində onilliklərdir davam edən Azərbaycan-Ermənistan münaqişəsi yalnız hərbi qələbə ilə deyil, həm də beynəlxalq hüquq çərçivəsində təsbit olunmuş sülh razılaşması ilə başa çatmaq üzrədir.

6

## İlham Əliyev Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib



Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.

Telefon danışığı zamanı Azərbaycan ilə BƏƏ arasında əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığı qeyd olunub. Dövlətimizin başçısının BƏƏ-yə sonuncu səfəri və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin önəmi vurğulanıb, bütün bunların regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyəti qeyd edilib. Bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı əldə olunmuş razılaşmalarda bu ilin iyul ayında Əbu-Dabidə Azərbaycanla Ermənistan arasında keçirilmiş ikitərəfli görüşün əhəmiyyətinə toxunub və buna görə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkürünü bildirib.

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan əldə olunmuş nəticələr ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırıb və bunun tarixi xarakter daşıdığını qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycan ilə BƏƏ arasında enerji, o cümlədən bərpaolunan enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edilib, qarşılıqlı sərmayələrlə bağlı fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanı Azərbaycana səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

*Prezidentin Mətbuat xidməti*

## İlham Əliyev Qurbanqulu Berdiməhəmmədova zəng edib



Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.

Telefon söhbəti zamanı Qurbanqulu Berdiməhəmmədovun bir müddət əvvəl Azərbaycana, o cümlədən Qarabağa səfəri və bu çərçivədə aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyev və Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafına toxunublar.

Telefon danışığı əsnasında Türkmənistanın Avaza şəhərində keçirilmiş BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransının əhəmiyyəti qeyd edilib. Dövlətimizin başçısı bu tədbirin uğurla təşkil olunması ilə bağlı Qurbanqulu Berdiməhəmmədova təbriklərini çatdırıb.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və ATƏT-in Minsk qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında əlaqənin yaradılmasına xidmət edəcək maneəsiz nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Türkmənistan Xalq Məsləhətinin Sədri əldə edilmiş tarixi razılaşmalar münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev onun salamlarını Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Qurbanqulu Berdiməhəmmədov da Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını və təbriklərini dövlətimizin başçısına çatdırıb.

Telefon söhbəti zamanı gələcək təmaslarla bağlı fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## İlham Əliyev Məhəmməd Şahbaz Şərifə zəng edib



Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə zəng edib.

Telefon söhbəti zamanı Pakistanın Baş nazirinin ölkəmizə səfəri, Laçında ikitərəfli, həmçinin Azərbaycan-Türkiyə-Pakistan formatında keçirilmiş üçtərəfli görüşlər, eyni zamanda onun İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi Sammitində iştirakı məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanmış sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanan bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunulub, bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu qeyd olunub.

Məhəmməd Şahbaz Şərif əldə olunmuş razılaşmaların önəmini vurğulayıb və Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Telefon söhbəti əsnasında iqtisadi, enerji, ticari və sərmayələr sahələrində ikitərəfli əlaqələrin daha da genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

## Volodimir Zelenski İlham Əliyevə zəng edib



Avqustun 10-da Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Ukrayna Prezidenti dövlətimizin başçısını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik edib və bu görüşün tarixi xarakter daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib, Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaların, xüsusilə ABŞ Prezidentinin şahidliyi ilə iki ölkə arasında imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunmasına və çiçəklənməyə xidmət göstərəcəyini qeyd edib.

Telefon danışığı əsnasında Azərbaycan və Ukrayna arasında ikitərəfli əlaqələrə də toxunulub. Bu xüsusda, ötən ay Bakıda iki ölkə arasında hökumətlərarası komissiyanın iclasının keçirilməsi və bu çərçivədə iqtisadi-ticarət əlaqələrinin inkişafına dair səmərəli müzakirələrin aparıldığı vurğulanıb.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

*Prezidentin Mətbuat xidməti*

## II Abdullah ibn Al Hüseyn İlham Əliyevə zəng edib



Avqustun 11-də İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İordaniya Kralı Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bu razılaşmaların regionda davamlı sülhün, təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə edərək, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanmış Birgə Bəyannamənin, həmçinin sülh və dövlətlərarası münasibətlərin yaradılmasına dair Sazişin paraflanmasının və digər sənədlərin regionda sülhün təmin olunması baxımından vacibliyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib.

Telefon danışığı zamanı Azərbaycanla İordaniya arasında ikitərəfli münasibətlərə toxunulub, siyasi əlaqələrin mövcud vəziyyətindən məmnunluq ifadə olunub, müxtəlif sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat xidməti*

# İlham Əliyev Şeyx Təmim bin Həməd Əl Taniyə zəng edib



Avqustun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Əl Taniyə zəng edib.

Telefon söhbəti zamanı bir müddət əvvəl Azərbaycan, Türkiyə, Qətər və Suriyanın birgə əməkdaşlığı nəticəsində Azərbaycan qazının Suriyaya çatdırılması layihəsinin önəmi vurğulanıb, bunun həyata keçirilməsində Qətərin maliyyə dəstəyi xüsusilə qeyd edilib.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nailiyyətlərin əldə edilməsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolu qeyd edilib. Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə verdiyi dəstəyə görə Qətər Əmirinə təşəkkürünü bildirib.

Şeyx Təmim bin Həməd Əl Tani sülh gündəliyinin irəli aparılmasında göstərdiyi liderlik və əldə olunmuş tarixi nəticələr ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Azərbaycan Prezidenti Qətər Əmirini ölkəmizə səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

***Prezidentin Mətbuat xidməti***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

2025-ci il avqustun 8-də Ağ Evdə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında tarixi sülh bəyannaməsinin imzalanması münasibətilə Sizə islam dünyasının mərkəzindən ən səmimi təbriklərimi çatdırıram.

Bu, Cənubi Qafqazın üfüqünü ümid və harmoniya ilə işıqlandıran parlaq bir hadisədir. Bu, eyni zamanda tarixi zənginləşdirən, dünyanı ruhlandıran, dostluq, əməkdaşlıq və qarşılıqlı hörmət yollarını açan mühüm bir mərhələdir.

Zati-aliləri, bu nailiyyət Sizin uzaqgörən liderliyinizin, əvəzsiz fədakarlığınızın və ortaq rifah gələcəyini formalaşdırmaq istiqamətində göstərdiyiniz əzmkar səylərin əyani təzahürüdür. Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası xalqları ortaq məqsədlər ətrafında birləşdirə biləcək qətiyyətin, dialoqun, gələcək baxışların parlaq nümunəsinə çevrilmişdir.

ICESCO-nun Baş direktoru kimi mən də bu anın sevincini və xalqınıza bəxş etdiyi qüruru bölüşürəm. Bu, sadəcə bir razılaşma deyil, gələcək nəsillərə bəxş olunan bir hədiyyədir, mədəniyyətlərin, ideyaların və imkanların inkişaf edəcəyi bir bünövrədir. ICESCO Azərbaycanın yanında olmaqla, təhsil, mədəniyyət və elm sahələrində təşəbbüslər vasitəsilə bu sülh ruhuna töhfə verməyə, hər bir sahədə anlaşmaya və əməkdaşlığa hazırdır.

Uca Allah bu yeni dövrü uğurlu etsin, onun yaratdığı bağları möhkəmləndirsin və region xalqlarına daha böyük nailiyyətlər, birlik və rifah bəxş etsin!

Zati-aliləri, bu tarixi və ilhamverici nailiyyət münasibətilə Sizə bir daha ən səmimi təbriklərimi çatdırır, ən yüksək ehtiramımı bildirirəm. Azərbaycanın adı tarixin bu parlaq səhifəsi ilə əbədi olaraq xatırlanacaqdır.

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd ƏL-MALİK,***
***ICESCO-nun Baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında bütün regionda ədalətli və davamlı sülhə nail olmağa imkan yaradan razılaşmanın əldə edilməsi ilə bağlı tarixi nailiyyət münasibətilə Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Beynəlxalq Katibliyi adından Sizə və Sizin simanızda Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram.

İki ölkə arasında sülh sazişinin ABŞ Prezidentinin iştirakı və şahidliyi ilə Vaşinqtonda, Ağ Evdə paraflanması Sizin rəhbərliyinizlə Azərbaycan diplomatiyasının əldə etdiyi mühüm uğurdur. Şübhəsiz ki, bu hadisə regiondakı proseslərə yeni dinamika gətirərək geosiyasi tarazlığı yenidən formalaşdıracaq, eləcə də beynəlxalq sülhə və əməkdaşlığa təkan verəcək və onları möhkəmləndirəcək.

Sülhə nail olmaq yolunda bu mühüm uğur yalnız Azərbaycan Respublikasının şanlı Qələbəsindən və işğal olunmuş torpaqlarının azad edilməsindən, ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra mümkün olub.

Biz həmçinin bildiririk ki, bu, müdrik Lider və görkəmli dövlət xadimi kimi Sizin şəxsi qələbənizdir. Təlatümlü və çətin beynəlxalq şəraitdə sülh naminə fəaliyyətinizdə Sizə uğurlar arzulayırıq.

Biz Sizin prinsipial mövqeyinizi, qətiyyətinizi və GUAM-ın üzvü olan dövlətlərin müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini qorumaq uğrunda apardıqları mübarizədə dəstəkləməkdə yorulmaz səylərinizi yüksək qiymətləndiririk. Həmişə olduğu kimi, biz regional təşkilat olaraq Qara dəniz və Xəzər dənizi regionlarında sülh, sabitlik, əməkdaşlıq və firavanlıq istiqamətində siyasətinizi dəstəkləməyə hazırıq.

Zati-aliləri, bu əlamətdar hadisə münasibətilə bir daha səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edir, sülh gündəliyinizi bundan sonra da həyata keçirməkdə Sizə uğurlar arzulayırıq. Azərbaycan xalqına isə sülh, tərəqqi və firavanlıq diləyirik.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Prezident Donald Trampın şahidliyi ilə Amerika Birləşmiş Ştatlarında Azərbaycanın mühüm rolu olan sülh sazişi ilə bağlı Birgə Bəyannamənin imzalanması münasibətilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri adından Sizə ən səmimi təbriklərimizi çatdırırıq.

Bu tarixi nailiyyət təkcə diplomatiyanın və dövlətçiliyin təntənəsi deyil, həm də təfəkkürün bölücülük üzərində qələbə çalmasının sübutudur.

Bu, Qafqaz regionunda davamlı sülhün təmin edilməsi istiqamətində həlledici addımdır və bölgənin bütün xalqları üçün sabitliyin, firavanlığın təmin olunmasında, əməkdaşlığın inkişafında tarixi hadisə kimi yadda qalacaqdır. Biz həmçinin bu sülhün ailələrin, uşaqların və icmaların hələ də əziyyət çəkdikləri hər bir məkana çatacağına inanırıq.

Biz zati-alinizin xalqlar arasında anlaşmanın və konstruktiv dialoqun möhkəmləndirilməsi istiqamətində uzaqgörənlik, daimi fədakarlıq və sarsılmaz sadiqlik nümayiş etdirərək bu prosesin uğurla nəticələnməsinə şəxsi və həlledici töhfəsini xüsusi vurğulayırıq.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycanın qlobal sülh səylərində etibarlı və hörmətli tərəfdaş kimi artan roluna şahidlik etməkdən qürur duyur və ortaq dəyərlərimizin prinsiplərinə uyğun olaraq, xalqlar, mədəniyyətlər arasında körpülər quran təşəbbüsləri dəstəkləməyə hazırdır.

Zati-aliləri, ən dərin hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

***Vayra VİKE-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,***
***1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Eka TKEŞELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Çaba KOROŞİ,***
***BMT Baş Assambleyasının 77-ci sessiyasının sədri***

***Mladen İVANİÇ,***
***2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

***Volkan BOZKIR,***
***BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri***

***Vuk YEREMİÇ,***
***BMT Baş Assambleyasının 67-ci sessiyasının sədri***

***Amina QURİB-FAKİM,***
***2015-2018-ci illərdə Mavrikinin Prezidenti***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***Suzan ELLİOT,***
***Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Dimitris AVRAMOPULOS,***
***2014-2019-cu illərdə miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə Avropa komissarı***

***İv LÖTERM,***
***2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri***

# R.G.Vəliyevin 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dəniz gəmiçiliyinin inkişafı sahəsində uzunmüddətli və səmərəli fəaliyyətinə görə Rauf Göyüş oğlu Vəliyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2025-ci il*

# Vladimir Feketenin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xidmətlərinə görə Vladimir Fekete "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2025-ci il*

# Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardım göstərir.

Son illərdə Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Azərbaycan Respublikası ilə Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasında istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 2,0 (iki) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2025-ci il*

# "Müdafiə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Müdafiə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı,1993, № 23-24, maddə 671; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 11, maddə 1183)17-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 17. Ərazi müdafiəsi**

Ərazi müdafiəsi ölkə ərazisinin, o cümlədən Azərbaycan Respublikası dövlət sərhədinin mühafizə və müdafiəsi üzrə tapşırıqların icrası üçün həyata keçirilən ümumdövlət hərbi və xüsusi tədbirlər kompleksidir.

Ərazi müdafiəsi Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları və hüquqi şəxslərlə qarşılıqlı əlaqədə həyata keçirilir.

Ərazi müdafiəsinin təşkili, hazırlığı və təmin olunması qaydaları Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə ilə müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2025-ci il*

# Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Sumqayıt Kimya Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Sumqayıt şəhəri, Sülh prospekti ünvanında yerləşən və "Azərboru" Açıq Səhmdar Cəmiyyətinin istifadəsindəki dövlət mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar kateqoriyasına aid 26,6676 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin istifadəsinə verilməsi ilə bağlı üç ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Sumqayıt Şəhər İcra Hakimiyyəti bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 avqust 2025-ci il*

# Ceyhun Bayramov ilə Aİ-nin ali nümayəndəsi Kaya Kallas arasında telefon danışığı aparılıb

**Avqustun 11-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas arasında telefon danışığı aparılıb.**




Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton görüşü zamanı Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin Sammitinin nəticəsində liderlər tərəfindən imzalanmış Birgə Bəyannamə, sülh sazişinin paraflanması, ATƏT-in Minsk Prosesi və aidiyyəti strukturların ləğvinə birgə çağırış, habelə əldə edilmiş digər razılıqlar münasibətilə təbriklərini çatdırıb.

Bu razılaşmaların bölgədə sülh və sabitliyin təmin olunması üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Kaya Kallas Aİ-nin sülh prosesinin irəlilədilməsinə daim dəstək verməyə hazır olduğunu bildirib.

Telefon danışığı zamanı, həmçinin Azərbaycan-Aİ münasibətlərindən irəli gələn məsələlər və perspektivlər, regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Sazişin paraflanmış mətni açıqlanıb

**2025-ci il avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistan Respublikasının Baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, paraflanmış sazişin ingilis dilində mətni ilə bu keçid vasitəsilə tanış olmaq mümkündür. Sazişin eyni dərəcədə autentik olan Azərbaycan dilinə qeyri-rəsmi tərcüməsi ilə bu keçid vasitəsilə tanış olmaq olar.

Bundan əlavə, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının xarici işlər nazirlərinin ATƏT-in Minsk Prosesi və əlaqəli strukturların (ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun) bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciətindən sonra, bu gün ATƏT Nazirlər Şurasının bağlanma ilə bağlı qərar layihəsi ATƏT iştirakçı dövlətləri arasında yayılıb və onlar qərarın qəbul edilməsi üçün lazımi prosedurları dəstəkləməyə çağırılıblar.

# Sülh prosesində tarixi mərhələ

## Diplomatiyamızın parlaq siyasi triumfu



**Azərbaycan Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ötən həftə Vaşinqtona etdiyi işgüzar səfər bütün siyasi çevrələrdə çox düzgün olaraq respublikamızın diplomatiya tarixinin ən mühüm hadisələrindən biri kimi nəzərdən keçirilir. Azərbaycanı bir daha dünyaya yaxından tanıdan, onun beynəlxalq nüfuzunu və mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirən, Azərbaycanla Ermənistan arasında aparılan sülh prosesini hüquqi baxımdan gücləndirən bu səfər diplomatiyamızın parlaq siyasi triumfu kimi tarixə düşdü.**

Öncə onu qeyd edim ki, Prezident İlham Əliyevin səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni inkişaf mərhələsinin əsasını qoydu. C.Baydenin ABŞ-yə rəhbərlik etdiyi dövr istisna olmaqla, Bakı ilə Vaşinqton arasında münasibətlər normal axarda davam edib. İki dövlət enerji sferasında, beynəlxalq terrorçuluğa qarşı mübarizədə və digər sahələrdə fəal və səmərəli əməkdaşlıq həyata keçiriblər. Donald Trampın ABŞ-yə birinci rəhbərliyi dövründə - 2020-ci ildə Azərbaycan ərazilərini döyüş yolu ilə işğaldan azad edib və o zaman Ağ Ev bununla bağlı ümumən neytral mövqe nümayiş etdirib.

Lakin Baydenin rəhbərliyi dövründə Azərbaycan-ABŞ münasibətlərində dərin siyasi böhran yaranmışdı. Xüsusən antiterror əməliyyatlarından sonra Bayden-Blinken administrasiyası Azərbaycanın yaratdığı reallıqlara qarşı çıxır, respublikamızı Ermənistana hərbi təcavüz cəhdində ittiham edirdi. Azərbaycanın guya Ermənistana hücum edəcəyi ilə bağlı şayiələri yayan siyasi ünvanlardan biri məhz Bayden-Blinken administrasiyası idi. Vaşinqtonda Azərbaycan media nümayəndələrinin suallarını cavablandıran Prezident İlham Əliyev bu barədə söz açaraq deyib: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsi məsələsinə gəlincə deməliyəm ki, son beş ildə müxtəlif ölkələrin liderlərindən nə qədər şayiələr və təxribatlar eşitdik. Guya Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır, guya həmin ərazini güc yolu ilə ələ keçirmək niyyətindədir. Bizim bütün bunlar barədə təkzib mesajlarımız işə yaramadı, çünki bu təsəvvür artıq formalaşdırılmışdı, o cümlədən burada - Vaşinqtonda".

Bayden administrasiyasının dövründə Azərbaycandan rəsmi nümayəndə heyətlərinin ABŞ-yə səfərlərinə məhdudiyyət tətbiq edilmişdi. Hətta ABŞ-də müxtəlif səviyyələrdə Azərbaycana qarşı sanksiyaların da tətbiq olunması barədə təşəbbüslər səslənirdi. Bunların hamısı Azərbaycanı öz haqq yolundan döndərmək niyyəti daşıyırdı. Belə hallarla biz müstəqillik tariximizdə çox rastlaşmışıq. Lakin tarixi reallıqlar həm də ondan xəbər verir ki, Azərbaycanı öz yolundan döndərmək mümkün deyil. Bu baxımdan qürurla qeyd etməliyik ki, Bayden administrasiyasının anti-Azərbaycan fəaliyyətinin qarşısında rəsmi Bakı heç vaxt geri çəkilmədi və qətiyyətli siyasət yürüdərək milli maraq və mənafelərini layiqincə təmin etdi.

Artıq ABŞ rəhbərliyi dəyişib və ölkənin yeni administrasiyasının fəaliyyətinin fonunda özünü qabarıq göstərən həm də Ağ Evin dəyişən siyasətidir. Başqa cür desək, yeni administrasiya ABŞ-nin milli maraqlarını dünyada ciddi şəkildə zədələyən yanlış siyasətdən imtina edib. Bu ilin əvvəlində USAID-in bağlanması da təsdiqləyir ki, Tramp Administrasiyası bu cür fəaliyyət mexanizmlərini qəbul etmir.

D.Trampın yenidən ABŞ Prezidenti seçilməsindən sonra Bakı ilə Vaşinqton arasında Bayden administrasiyasının Azərbaycana qarşı qərəzli münasibəti səbəbindən böhran vəziyyətinə düşən siyasi əlaqələr yenidən canlanmağa başladı. Xatırladım ki, ABŞ-də keçirilən son prezident seçkilərindən hələ 3 ay öncə Şuşada təşkil olunan Qlobal Media Forumunda ABŞ-dəki seçkilərlə bağlı jurnalistin sualını cavablandıran Prezident İlham Əliyev böyük uzaqgörənlik və cəsarət nümayiş etdirərək o zaman prezidentliyə namizəd olan D.Tramp haqqında müsbət fikirlər söyləmiş, diplomatik dillə ifadə etsək, onun namizədliyini dəstəkləmişdi. Eyni zamanda Prezident İlham Əliyev bir neçə dəfə açıqlamalarında D.Trampın prezidentliyi dövründə ABŞ-nin heç bir müharibə başlatmadığını, o cümlədən D.Trampın ailə institutuna, ənənəvi dəyərlərə böyük önəm verdiyini qeyd etmişdir. Prezident İlham Əliyevin bu ilin iyulunda Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı D.Tramp barəsində səsləndirdiyi fikirləri isə ABŞ lideri özünün rəsmi sosial hesabında paylaşmışdı. Bütün bunlar söyləməyə əsas verirdi ki, Azərbaycan-ABŞ münasibətlərində tezliklə yeni inkişaf mərhələsi başlayacaq.

Prezident İlham Əliyevin D.Trampın dəvəti ilə ABŞ-yə avqustun 7-8-də etdiyi səfər deyilənlərin əyani təsdiqi oldu. Səfər zamanı imzalanan sənədlər qeyd etdiyim kimi, Azərbaycan-ABŞ münasibətlərinin inkişafında yeni keyfiyyət mərhələsinin başlanmasını nümayiş etdirir. Bu sırada iki ölkənin prezidentləri tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nu xüsusi qeyd etməliyik. Azərbaycanla ABŞ arasında qarşılıqlı maraq doğuran sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edən Anlaşma Memorandumuna əsasən, Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis olunması baxımından xüsusi əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev Ağ Evdə mətbuata bəyanatla çıxışında Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlığın artıq başladığını bildirərək deyib: "Biz, həqiqətən də, yeni tarixi səhifəyə imza atırıq. Eyni zamanda ABŞ və Azərbaycan arasındakı ikitərəfli münasibətlər yeni pilləyə qalxır və bizim strateji tərəfdaşlığımız artıq başlayır. Bu istiqamətdə bir neçə ay ərzində sənədlər və bütün mətnlər hazırlanacaq. Azərbaycan üçün bu, tarixi nailiyyətdir. Çünki bu gün strateji tərəfdaşlıq kontekstində dünyanın ən böyük ölkəsi ilə əlaqələr qurulur".

Səfər çərçivəsində Azərbaycan Prezidentinin və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və "ExxonMobil" korporasiyası arasında Əməkdaşlıq haqqında Memorandum da imzalanıb. Bu sənəd Azərbaycanla ABŞ arasında enerji sahəsində əməkdaşlığı daha da gücləndirəcək və Prezident İlham Əliyevin bildirdiyi kimi, əhəmiyyətli bir layihə ilə nəticələnəcək.

Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması



barədə sərəncam imzalaması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin D.Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-nin Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi.

Xatırladaq ki, 1992-ci ilin oktyabrında erməni lobbi qruplarının təsiri altında olan konqresmenlərin təşəbbüsü ilə "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin edilməsi ölkəmizi ABŞ-nin birbaşa dəstəyindən məhrum etmiş və respublikamız sanksiyalara məruz qalmışdı. ABŞ-nin Əfqanıstanda dəstəyə ehtiyacı olduğuna görə və Azərbaycan bu dəstəyi verdiyi üçün sonradan bu düzəliş hər il müvəqqəti olaraq dayandırılırdı. 2023-cü ildə ABŞ tərəfindən 907-ci düzəlişin yenidən tətbiq olunması Bayden-Blinken cütlüyünün Azərbaycana olan qərəzli münasibətinin göstəricisi idi.

Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə elə bir inkişaf mərhələsinə yüksəlib ki, həm də donor ölkəyə çevrilib. Ona görə Azərbaycanın hansısa xarici dəstəyə və yardıma ehtiyacı yoxdur. Bununla belə Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də Tramp tərəfindən Azərbaycana edilən siyasi jest oldu.

Bütövlükdə, Prezident İlham Əliyevin Vaşinqtona səfərinin yekunları Azərbaycan-ABŞ münasibətlərinin keyfiyyətcə yeni dövrə qədəm qoymasına xidmət edən məqamlarla zəngin oldu. Ona görə bu səfərin nəticələri həm də Azərbaycanın xarici siyasətinin mühüm uğurlarıdır. Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində səfərin hər bir uğurunu tarixi hadisə adlandıraraq deyib: "Təbii ki, 907-ci düzəlişin ləğv olunması hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir. Ona görə mən səfərin nəticələrindən çox məmnunam və əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü biruzə verəcək".

Səfərlə bağlı bir məqamı da qeyd etmək yerinə düşər ki, Azərbaycan və ABŞ prezidentlərinin Ağ Evdəki görüşünün səmimi və dostluq ovqatında keçməsi, Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək münasibət, dövlətimizin başçısına hədiyyənin və Ağ Evin rəmzi açarının təqdim olunması D.Trampın cənab İlham Əliyevə olan böyük ehtiramının və Azərbaycana verdiyi önəmin göstəricisinə çevrildi. Etiraf edək ki, heç də bütün dövlət və hökumət başçıları Ağ Evdə belə səviyyədə qarşılanmır. Və ya ABŞ rəhbərliyi heç də hamıya bu cür səmimi münasibət göstərmir. Prezident D.Tramp özü də qeyd etdi ki, Ağ Evin rəmzi açarını nadir hallarda təqdim edir.

Prezident İlham Əliyevin ABŞ-yə səfəri Azərbaycan-ABŞ münasibətlərində irəliyə doğru mühüm addımların atılması ilə yanaşı, Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesi və sülh sazişinin imzalanması kontekstində indiyədək əldə olunmuş bütün nəticələrin fövqündə, zirvəsində dayanan tarixi razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. Ona görə Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin Vaşinqtonda D.Trampın iştirakı ilə keçirdikləri görüş Zirvə görüşü də adlandırılır. Bu görüş zamanı Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması iki dövlət arasında sülhün təmin edilməsi istiqamətində indiyə qədər atılmış ən mühüm addımdır. Saziş layihəsini paraflamaqla Ermənistan onun mətni ilə razı olduğunu ABŞ-nin iştirakı ilə hüquqi çərçivədə təsdiq etdi.

Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına dair təklif və təşəbbüs ilk olaraq rəsmi Bakı tərəfindən irəli sürülüb. Hazırda razılaşdırılmış saziş layihəsinin mətni də Azərbaycanda yazılıb. O da məlumdur ki, 44 günlük müharibədən sonrakı dövrdə Ermənistan hakimiyyəti Azərbaycanın təşəbbüslərinə adekvat cavab verməkdən yayınır, o cümlədən hərbi təxribatlarla bu prosesə qarşı çıxmağa çalışırdı. Bu məsələdə Fransanın, ABŞ-nin əvvəlki rəhbərliyinin antiazərbaycançı mövqeyi və regionda yaranmış reallıqları qəbul etməmələri, habelə Ermənistandakı revanşizmə, Qarabağdakı separatizmə dəstək vermələri də xüsusi rol oynayırdı. Lakin 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistanın artıq reallıqlarla barışmaqdan başqa yolu qalmadı və bir neçə ay əvvəl rəsmi İrəvan sülh sazişinin bütün maddələri ilə razı olduğunu bəyan etdi. Sülh sazişinin paraflanması ilə həm də Qərbdə Azərbaycanı Ermənistana hücum etməkdə ittiham edənlərin, ölkəmizə iftira atanların bütün əsassız və qərəzli arqumentləri əllərindən alındı.

Sülh sazişinin imzalanmasına gedən yolda Vaşinqtonda əldə olunan daha bir hüquqi razılaşma Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciətinin (ATƏT-in Minsk Prosesinin, ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk konfransının müzakirəsində olan münaqişə üzrə şəxsi nümayəndəsi və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun bağlanması barədə) imzalanmasıdır. Minsk qrupunun ləğvi Azərbaycanın sülh sazişinin imzalanması istiqamətində Ermənistanın qarşısında qoyduğu iki əsas şərtdən biridir. ABŞ-də Azərbaycan və Ermənistanın xarici işlər nazirləri tərəfindən birgə müraciətin imzalanması ilə rəsmi İrəvan bu şərtlərdən birini yerinə yetirmiş oldu.

Minsk qrupu Azərbaycanın 44 günlük müharibədəki qələbəsindən sonra öz fəaliyyətini faktiki olaraq dayandırmışdı. Bu strukturun ATƏT tərəfindən ləğvindən sonra isə Ermənistanda və ondan kənardakı revanşistlərin, erməni lobbisinin və bütövlükdə antiazərbaycançı dairələrin yapışacaqları hansısa hüquqi istinad yeri olmayacaq.

Bundan sonra yekun sülh sazişinin imzalanması üçün Ermənistanın yerinə yetirməli olduğu yalnız bir şərt qalır. Bu da Ermənistan Konstitusiyasından Azərbaycana qarşı olan ərazi iddialarının çıxarılmasıdır. Prezident İlham Əliyevin Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bildirdiyi kimi, bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var. Bildiyiniz kimi, onların Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiası məsələsi imkan vermədi ki, bu gün sülh sazişi imzalansın. Amma bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər".

Vaşinqton görüşünün nəticələrinə dair imzalanan Birgə Bəyannamə isə bütün müddəaları ilə tam şəkildə Azərbaycanın milli maraq və mənafelərini ifadə edir. Sənəddə yer alan bütün fikirlər Azərbaycanın sülh prosesi ilə bağlı irəli sürdüyü prinsiplərə tam uyğundur. Birgə Bəyannamədə "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması ilə bağlı müddəa çərçivəsində sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün əlavə tədbirlərin görülməsinə ehtiyac olduğu təsbit edilib. Bunlardan başqa, sənədə əsasən, tərəflər BMT Nizamnaməsi və 1991-ci il Almatı Bəyannaməsinə uyğun olaraq, keçmiş münaqişənin əsiri olmayan parlaq gələcək yoluna qədəm qoyulmasına olan ehtiyacı qəbul edirlər.

Bəyannamədə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası ilə maneəsiz bağlantısının təmin olunması barədə müddəanın yer alması da respublikamızın milli maraqlar müstəvisində qarşıya qoyduğu prinsipial hədəfinə çatması deməkdir. Sənəddə təsbit olunan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası ilə maneəsiz bağlantısının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur. "Tramp yolu" adlanmasına baxmayaraq, söhbətin Zəngəzur dəhlizindən getdiyi aydındır. Beləliklə, Prezident İlham Əliyevin 44 günlük müharibədən sonra qarşıya qoyduğu daha bir milli məqsəd həyata vəsiqə almaq üzrədir.

Ötən 5 ilə yaxın dövr dövlətçiliyimizi və müstəqilliyimizi xüsusilə şərəfləndirən çoxsaylı hadisələrlə zəngindir. Cənab Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin nəticəsi olaraq torpaqlarımızın işğaldan azad olunması, Qarabağda erməni separatçılığına son qoyulması, bütün ərazilərimiz üzərində milli suverenliyimizin tam təmin edilməsi tariximizin qürur doğuran səhifələridir. İkinci Dünya müharibəsinin başa çatmasından ötən dövrdə Azərbaycan istisna olmaqla, hansısa dövlətin birmənalı qalib olduğu savaş yoxdur.

Vaşinqtonda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı atılan nəticəyönümlü addımlar, sülh sazişinin paraflanması, Birgə Bəyannamənin imzalanması və dünyanın ən qüdrətli dövlətinin bu prosesə həm dəstək verməsi, həm də şahidlik etməsi Prezident İlham Əliyevin respublikamıza qazandırdığı növbəti tarixi və diplomatik nailiyyətdir. Göründüyü kimi, tarixi ədaləti güc yolu ilə bərpa edən Müzəffər Ali Baş Komandan qətiyyətli siyasəti ilə diplomatik müstəvidə də respublikamıza qələbələr qazandırır, Vətən müharibəsində yaratdığı reallıqların qlobal səviyyədə tanınmasına nail olur, regionda sülhü bərqərar edir. "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" deyən cənab Prezident İlham Əliyev özünün siyasi erudisiyası ilə Azərbaycanı milli hədəflərinə layiqincə çatdırır.

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

## Azərbaycan diplomatiyasının Vaşinqton zəfəri



**Azərbaycan Prezidenti cənab İlham Əliyevin Vaşinqtona işgüzar səfəri respublikamızın siyasi və diplomatiya tarixinə qızıl hərflərlə yazıldı. Prezident Donald Trampın dəvəti ilə reallaşan bu səfər Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələyə yüksəldilməsi və Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin hüquqi müstəvidə daha da möhkəmləndirilməsi, sülh sazişinin imzalanması istiqamətində əsas maneələrin aradan qaldırılması baxımından mühüm razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu.**

Azərbaycan-ABŞ münasibətləri Baydenin bu dövlətə rəhbərliyi dövründə tarixdə görünməmiş dərəcədə pisləşmişdi. Bu da Bayden administrasiyasının Azərbaycanın Cənubi Qafqazda yaratdığı reallıqlara qarşı çıxmasından irəli gəlirdi. Ona görə Vaşinqtondan ölkəmizin ünvanına müxtəlif ittihamlar səsləndirilir, Azərbaycanla Ermənistan arasında sülhün əldə olunmasına maneçilik yaradan təxribatçı fəaliyyət həyata keçirilirdi. Bununla kifayətlənməyən Bayden-Blinken cütlüyü həm də beynəlxalq səviyyədə azərbaycanofobiyanın həyata keçirilməsinə dəstək verirdi.

Prezident İlham Əliyev Vaşinqtonda ölkəmizin media nümayəndələrinə müsahibəsində bu məsələyə diqqət çəkərək vurğuladı ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Respublikamızla ABŞ arasında əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı. Azərbaycanın Ermənistana hücum etməyi barədə şayiələr Vaşinqtonda da yaradılırdı və bu azərbaycanofobiyanın hərəkətverici qüvvəsi Bayden administrasiyası idi.

D.Trampın prezident seçilməsindən sonra Azərbaycanla ABŞ arasında münasibətlərin müsbətə doğru dəyişməsi yönündə yeni imkanlar açıldı. İki dövlətin liderləri arasında telefon danışığının, eləcə də məktublar mübadiləsinin baş tutması tənəzzül dövrü keçirən siyasi əlaqələrin qaydaya salınması üçün münbit zəminin və tarixi şəraitin formalaşmasından xəbər verirdi. Bu baxımdan Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri nəinki Azərbaycan-ABŞ münasibətlərindəki siyasi böhranı tamamilə aradan qaldırdı, hətta dövlətlərarası əlaqələrin strateji səviyyəyə yüksəldilməsi üçün yeni siyasi-iqtisadi imkanlar yaratdı. Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində bu barədə danışan Prezident İlham Əliyev Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açıldığını bəyan edib: "Mən səfərin nəticələrini çox yüksək qiymətləndirirəm. İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir. Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi".

Səfər çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Bu sənəddə təsbit edilən qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlıq kimi məsələlər ölkəmizin qarşısında böyük imkanların açıldığını göstərir. Səfər çərçivəsində SOCAR və "ExxonMobil" korporasiyası arasında imzalanan Əməkdaşlıq haqqında Memorandum isə şirkətlər arasında mövcud əlaqələri möhkəmləndirmək və Azərbaycanda həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlığı ehtiva edir.

Azərbaycan-ABŞ münasibətlərinin gələcək inkişafı baxımından digər mühüm məsələ bu səfər zamanı Prezident D.Tramp tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin icrasının dayandırılması barədə sərəncamın imzalanması oldu. Torpaqlarımızın Ermənistan tərəfindən işğal olunduğu bir dövrdə - 1992-ci ildə ABŞ Konqresi Azərbaycanın guya Ermənistana "blokada" tətbiq etməsini bəhanə uyduraraq Azərbaycana ABŞ-dən dövlət yardımının göstərilməsini qadağan edən qanunu qəbul etmişdir. Xüsusən Bayden administrasiyası 907-ci düzəlişdən Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışırdı. Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələyə qədəm qoymasının göstəricisi kimi 907-ci düzəlişin tətbiqi də dayandırıldı. Bu, Azərbaycan diplomatiyasının böyük uğurudur və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, tarixi hadisədir.

Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfərinin digər mühüm məqamı Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin daha da möhkəmləndirilməsi, sülh sazişinin imzalanmasına doğru tarixi addımların atılmasıdır. Məlum olduğu kimi, 44 günlük müharibədən sonra iki dövlət arasında sülh sazişinin imzalanması üçün ilk olaraq Azərbaycan təşəbbüslə çıxış edib, bununla bağlı beynəlxalq hüquqa əsaslanan prinsipləri Ermənistana təqdim edib. Vaşinqtonda paraflanan sülh sazişi layihəsinin müəllifi də məhz Azərbaycandır. Bu baxımdan ABŞ-də sülh sazişinin imzalanması istiqamətində əldə edilən razılaşmalar - hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət məktubunun imzalanması Azərbaycanın sülhlə bağlı təşəbbüslərinin həyata vəsiqə almasından xəbər verir.

ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət məktubunun imzalanması ilə Azərbaycanın iki fundamental şərtindən biri Ermənistan tərəfindən yerinə yetirilib. Sülh sazişinin imzalanması ilə bağlı Azərbaycanın digər şərti Ermənistan Konstitusiyasında dəyişiklik edilərək, ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılmasıdır. Vaşinqtonda paraflanan və mətni razılaşdırılan sülh sazişi Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırıldıqdan sonra istənilən vaxt imzalana bilər. Ermənistan tərəfi özü də bildirir ki, Konstitusiyasında dəyişikliklər edilməlidir. Əgər bunlar baş verməsə və Ermənistan Konstitusiyasından Azərbaycana olan ərazi iddiaları çıxarılmasa, bu, birinci növbədə ABŞ-yə qarşı hörmətsizlik olacaq.

Azərbaycan və ABŞ prezidentlərinin və Ermənistanın baş nazirinin Vaşinqionda keçirilən görüşünün nəticəsi olaraq Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanan Birgə Bəyannamədə sülh sazişi ilə bağlı əldə olunan bütün razılaşmalar hüquqi baxımdan təsbit olundu. Və bu sənədin məzmunu bütövlükdə Azərbaycanın irəli sürdüyü sülh gündəliyini özündə tam ehtiva edir. O cümlədən sənəddə iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasına dair olan müddəa Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz keçidin təmin olunması ilə bağlı respublikamızın prioritetlərinin həyata vəsiqə aldığını göstərir.

Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfəri bütün tərəfləri ilə göstərdi ki, dövlətimizin başçısı Azərbaycanın milli maraqlarını və mənafelərini uğurla təmin edir. Vaşinqtonda D.Tramp tərəfindən yüksək səviyyədə qarşılanma, olduqca səmimi atmosferdə keçirilən görüş, dövlətimizin başçısına Ağ Evin rəmzi açarının təqdim olunması cənab Prezident İlham Əliyevin qlobal səviyyədə ehtiram göstərilən siyasi lider olduğunu bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin Vaşinqton səfəri həm də onu göstərdi ki, 44 günlük Vətən müharibəsində, birgünlük antiterror tədbirlərində güc yolu ilə ədaləti bərpa edən Prezident İlham Əliyev həm də özünün siyasi diplomatiyası ilə regionda dayanıqlı və etibarlı sülhü təmin edir.

Bütövlükdə, Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfərinin nəticələri Azərbaycan diplomatiyasının tarixi uğuru və qələbəsi oldu.

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

# Sülh prosesində tarixi mərhələ



## Azərbaycan sülh gündəliyini Vaşinqtondan dünyaya təqdim etdi

**Ərazi bütövlüyünü və dövlət suverenliyini, ədaləti bərpa edən Azərbaycan bu gün regionu sülh və əməkdaşlıq məkanına çevirir. Təbii ki, bu uğurun memarı Prezident İlham Əliyevdir. Məhz Azərbaycan Prezidentinin müəllifi olduğu sülh gündəliyini bu gün bütün dünya dəstəkləyir. Dövlətimizin başçısının müdrikliyi, uzaqgörənliyi, qətiyyəti sayəsində Azərbaycan bölgədə beynəlxalq birlik tərəfindən qəbul olunan yeni reallıqlar formalaşdırıb.**



Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov "Azərbaycn" qəzetinə açıqlamasında bildirib ki, 2003-cü ildən Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətti böyük müdrikliklə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı böyük uğurlara daşıyıb. Ötən illər ərzində Azərbaycanı qlobal siyasi və iqtisadi proseslərin fəal iştirakçısına çevirən Prezident İlham Əliyev ölkəmizin milli maraqlarını beynəlxalq müstəvidə uğurla müdafiə edərək onu qüdrətli və qalib dövlətə çevirdi: "Azərbaycan Prezidentinin siyasi iradəsi, müdrik və qətiyyətli qərarları ölkəmizi yeni çağırışlar qarşısında dayanıqlı dövlət kimi möhkəmləndirib. Həyata keçirilən və nəticəyə hesablanmış nəhəng layihələr ildən-ilə əhəmiyyətini daha da artırır. 2020-ci ilin sonunda tam istismara verilən "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini yenidən cızıb. Azərbaycan qazı hazırda dünyanın 14 ölkəsinə tədarük olunur. Təbii ki, uzun illər ərzində formalaşmış və davamlı xarakter alan əməkdaşlıq ölkəmizə, onun Prezidentinə olan hörmət və ehtiramı daha da möhkəmləndirir. Elə bu səbəbdəndir ki, Azərbaycan beynəlxalq miqyasda etibarlı tərəfdaş imicini qazanıb".

Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidentinin dünya liderləri ilə qarşılıqlı etimada əsaslanan münasibətləri xüsusi əhəmiyyətə malikdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə dövlət başçımız arasında olan qardaşlıq münasibətləri xalqlarımız və ölkələrimiz arasında əlaqələri ən yüksək səviyyəyə qaldırıb. Bu gün Azərbaycan-Türkiyə müttəfiqlik münasibətləri regional təhlükəsizlik və iqtisadi inteqrasiyanın təməl daşlarından biri kimi qəbul olunur. Çinin rəhbəri Si Cinpin ilə dostluğa əsaslanan münasibətlər təbii ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin formalaşmasında müstəsna rol oynayır. Bu əməkdaşlıq Azərbaycan və yerləşdiyimiz region üçün yeni fürsətlər yaradır. "Prezident İlham Əliyevin müdrikliyi, qətiyyəti dünya liderlərinin diqqətini Azərbaycana yönəldir. Dövlət başçısının təşəbbüsləri qlobal səviyyədə əməkdaşlığı təşviq edir. ABŞ Prezidentinin dəvəti ilə 8 avqust tarixində Ağ Evdə keçirilən görüşlər qeyd etdiklərimizin əyani təzahürüdür. Azərbaycan və ABŞ prezidentlərinin səmimi dialoqları, dostluq ab-havasında keçirilən görüş, tarixi sənədlərin imzalanması dünyanın lider ölkəsinin Azərbaycana, onun Prezidentinə olan hörmətinin əyani təzahürüdür. Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində Strateji İşçi Qrupunun yaradılması barədə Anlaşma Memorandumu ölkələrimiz arasında əməkdaşlığın inkişafı baxımından olduqca böyük uğurdur. Belə ki, bu sənəd iki dövlət arasında qarşılıqlı dialoqun daha sistemli və məqsədyönlü şəkildə həyata keçirilməsi üçün möhkəm hüquqi və institusional baza yaradır. Bu, Azərbaycanla ABŞ arasında dialoqun və əməkdaşlığın yeni səviyyəyə çatdırılması üçün önəmli vasitədir və strateji tərəfdaşlığın dərinləşməsinə zəmin yaradır", - deyə Ş.İsmayılov əlavə edib.

Onun sözlərinə görə, dünyanın diqqət mərkəzində olan tədbirlər Azərbaycan liderinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi uğurlu strategiyasının növbəti mərhələsi idi. Vətən müharibəsində qazanılan parlaq zəfər nəticəsində ərazi bütövlüyünü, antiterror tədbirlərində əldə olunan qələbə ilə dövlət suverenliyini bərpa edən Azərbaycan 2025-ci il avqustun 8-də Vaşinqtonda özünün sülh gündəliyini dünyaya təqdim etdi. Bu sülh davamlı inkişaf və qlobal əməkdaşlığı təşviq edir.

Komitə sədri vurğulayıb ki, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanması mühüm tarixi hadisədir: "Azərbaycanın irəli sürdüyü şərtlər qəbul olunur, region Azərbaycanın müəyyənləşdirdiyi yeni reallıqlar əsasında inkişafının yeni mərhələsinə qədəm qoyur. Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamə Ağ Evdə keçirilən görüşlərin tarixi əhəmiyyətini aydın şəkildə nümayiş etdirir. Bu xüsusda "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun yaradılması regional iqtisadi inteqrasiyaya, canlanmaya ciddi töhfə verəcək. Eyni zamanda bu addımlar regionda sülhün möhkəmlənməsinə şərait yaradacaq, dayanıqlı əməkdaşlığı şərtləndirəcək. Həmçinin region üçün yeni investisiya imkanları açacaq".

Ş.İsmayılov bildirib ki, Vaşinqtonda əldə olunan razılaşmalar Azərbaycanın həm siyasi, həm də iqtisadi mövqeyinin möhkəmlənməsinə zəmin yaradır. Strateji tərəfdaşlıq istiqamətində ABŞ ilə əlaqələrin genişlənməsi, eləcə də regionda kommunikasiyaların açılması ölkəmizin beynəlxalq arenadakı rolunu daha da artırır. Azərbaycan Prezidentinin Cənubi Qafqaz üçün formalaşdırdığı sülh modeli regionun parlaq gələcəyinə, dayanıqlı inkişafına zəmin yaradır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Biz bu qürurlu tarixin şahidləri olduq"

**Prezident İlham Əliyevin ABŞ-yə səfəri Azərbaycan-ABŞ münasibətlərinin inkişafı, Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin daha da irəlilədilməsi və regiona sülhün və əməkdaşlığın gəlməsi baxımından çox əhəmiyyətli oldu. Dövlət başçımızın səfər gündəliyi keçirilmiş görüşlər və imzalanmış sənədlər baxımından çox zəngin idi.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, dövlət başçımızın Donald Trampla keçirdiyi ikitərəfli görüşün tarixi əhəmiyyəti oldu. 1992-ci ildə Azərbaycan işğala məruz qalmasına baxmayaraq, işğalçı kimi qələmə verilərək ABŞ "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş etməklə ölkəmizə qarşı sanksiya tətbiq etmişdi: "İlham Əliyevlə Donald Trampın görüşü zamanı bu düzəlişin tədbiqinin dayandırılması ilə bağlı sənəd imzalandı. Bu həm də Azərbaycanla ABŞ münasibətlərinin gələcək konturlarının müəyyən edilməsi baxımından çox əhəmiyyətli addım idi. Dövlət başçılarının imzaladığı "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" isə ölkələrarası əməkdaşlığın genişləndirilməsini nəzərdə tutmaqla, enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrdə əməkdaşlığın hüquqi bazasının yaradılması üçün yeni sənədlərin hazırlanmasına yol açır. İşçi qrup 6 ayda yeni sənədlərin imzalanması üçün iş aparacaq və hesab edirəm ki, dövlət başçılarının növbəti görüşündə Azərbaycan-ABŞ arasında əməkdaşlığın hüquqi bazası daha da genişləndiriləcək".

Deputat vurğulayıb ki, Donald Trampın Prezident İlham Əliyevə Ağ Evin rəmzi açarını təqdim etməsi tarixi hadisə oldu. Tramp bu açarı çox nadir hallarda təqdim etdiyini bildirdi. Bu həm də Azərbaycan-ABŞ münasibətlərində açılan yeni bir səhifənin açarı idi. Prezident İlham Əliyev və ABŞ Prezidentinin xüsusi elçisinin iştirakı ilə SOCAR və "ExxonMobil" şirkəti arasında imzalanmış Əməkdaşlıq haqqında Memorandum ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsində yeni imkanlar açacaq. "Dövlət başçımızın ABŞ səfəri həm də Ermənistanla münasibətlərin normallaşdırılmasını və sülhə gedən yolun dönməz və qısa olmasını şərtləndirdi. Yekun sülh müqaviləsinin imzalanması üçün əsas maneələrdən biri olan Minsk qrupunun ləğv edilməsi ilə bağlı ATƏT-ə birgə müraciət göndərildi. "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsinin paraflanmasından sonra Birgə Bəyanat imzalandı. Bu bəyanatla regionumuza sülhün gəlməsi təsdiqlənmiş oldu. Vaşinqtonda yüksəksəviyyəli bu görüş olmasaydı, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqların aparılmasının müddəti uzana bilərdi", - deyə A.Badamov bildirib.

Onun sözlərinə görə, görüşün əhəmiyyətli tərəflərindən biri Zəngəzur dəhlizinin "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adı altında açılmasının təsdiq olunmasıdır. Bununla Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçid təmin olunacaq. ABŞ "Tramp marşrutu"na sərmayə qoyulmasına başlayacaq və yaxın dövrdə bu yolun açılışının şahidi olacağıq.

Deputat qeyd edib ki, ölkə rəhbərlərinin Vaşinqton görüşü ilə uzun sürən münaqişəni sonlandırılmış hesab etmək olar: "Burada ən çox diqqəti cəlb edən məqamlardan biri Prezident İlham Əliyevin 10 noyabr 2020-ci ildə bəyan etdiyi mövqeyinin dəyişilmədən həyata keçirilməsidir. Danışıqlar prosesi 5 ilə yaxın davam etdi. Bu 5 ildə dövlət başçımızın bildirdiyi məsələlərə heç bir dəyişiklik edilmədən hədəfə nail olundu. Döyüş meydanında əldə etdiyimiz qələbəni siyasi meydanda təsdiq etdirdik. Bu, çox böyük nailiyyətdir və dövlətçilik tariximizə qızıl hərflərlə qeyd olunacaq. Gələcək nəsillərimiz yaşadığımız bu tarixi kitablardan oxuyacaqlar və fərəhlənib fəxr edəcəklər. Nə yaxşı ki, biz bu qürurlu tarixin şahidləri olduq".

A.Badamov deyib ki, 8 avqust 2025-ci il, həqiqətən, qürurverici bir tarixdir. Görüşün sonunda 35 illik münaqişəyə son qoyulmasına verdiyi töhfəyə görə Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin Sülh Komitəsinə Trampa Sülh Mükafatının verilməsi üçün birgə müraciət göndərilməsi təklifinin səsləndirilməsi də görüşün yaddaqalan və unudulmaz anı oldu. Zamanında edilən hər bir diplomatik jest dövlətlərarası münasibətlərin gələcəyinə öz təsirini göstərir.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Cənubi Qafqaz sülh və əməkdaşlıq regionuna çevrilir

**"Azərbaycan və ABŞ dövlət başçılarının görüşü, görüş zamanı qəbul edilən qərarlar, imzalanan sənədlər Vaşinqtonun Cənubi Qafqaz siyasətində yeni mərhələnin başlanğıcını ifadə edir. Beləliklə də, ABŞ dövlət başçısının şahidliyi ilə razılaşdırılan sülh müqaviləsi Qafqazda 30 ildən artıq davam edən münaqişənin tarixə qovuşmasına və regionda dayanıqlı sülhün bərqərar olmasına real zəmin yaradır. Xüsusilə ATƏT-in Minsk qrupunun ləğvi, ölkəmizə qarşı ədalətsiz münasibətin göstəricisi olan 907-ci düzəlişin ləğvi, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması istiqamətində əldə olunan razılaşmalar iqtisadi inkişaf üçün də etibarlı əsaslar formalaşdırır. Uzun müddətdən bəri münaqişə zonası kimi yadda qalmış Cənubi Qafqaz sülh və əməkdaşlıq regionuna çevrilir. ABŞ liderinin iştirakı ilə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair sülh müqaviləsinin paraflanması, regiona sülh gəlməsi uzunmüddətli iqtisadi tərəqqi üçün də real zəmin formalaşdırır".**



AZƏRTAC xəbər verir ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri iqtisad elmləri doktoru Aqil Əsədovun fikrincə, səfərin ABŞ Prezidentinin dəvəti ilə reallaşması bir çox məsələyə aydınlıq gətirir. Bu, ilk növbədə Azərbaycan Prezidentinin dünyanın aparıcı liderlərindən biri olduğunu ifadə edir, Azərbaycan dövlətinin etibarlı tərəfdaş olmasını bir daha təsdiqləyir və bütün dünyada ölkəmizə olan inamın, etimadın bir göstəricisi kimi də qəbul edilə bilər.

"İlk növbədə Zəngəzur dəhlizinin "Beynəlxalq Sülh və Rifah üçün Tramp yolu" adı ilə açılması razılaşdırılıb ki, bu da mühüm regional və qlobal əhəmiyyətə malikdir. Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında quru bağlantı yaradacaq dəhliz həm Naxçıvanla fasiləsiz quru yol əlaqəsini təmin edəcək, həm də Türkiyəyə birbaşa yol açaraq regionda yeni nəqliyyat xəritəsi formalaşdıracaq. Eyni zamanda bu, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda nəzərdə tutulan, lakin icrası illərlə Ermənistan tərəfindən uzadılan məsələnin uğurla reallaşması deməkdir. Dəhlizin açılması Azərbaycan və Ermənistanın xarici bazarlara çıxışını asanlaşdırmaqla, hər iki ölkənin ticarət əlaqələrinin inkişafına təkan verəcək. Digər tərəfdən, beynəlxalq yükdaşımaların intensivliyinə şərait yaradacaq ki, bu da dünya ticarətinin inkişafına, dünya dövlətləri arasında əmtəə bölgüsünün balanslaşdırılmasına kömək edəcək", - deyə Aqil Əsədov bildirib.

Onun fikrincə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ-yə səfəri qarşılıqlı münasibətlərin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda bu səfər regionda etibarlı sülhün bərqərar olması, qlobal və regional təhlükəsizlik, Azərbaycan-ABŞ münasibətlərində Bayden dövründə yaranmış soyuqluğun aradan qaldırılması kimi məsələlərə öz töhfəsini verəcək. Təbii ki, səfərin siyasi-strateji əhəmiyyəti ilə yanaşı, prezidentlər arasında keçirilən yüksəksəviyyəli danışıqlar iqtisadi münasibətlərin inkişafına da təsirsiz ötüşməyəcək.

Səfər zamanı Azərbaycan-ABŞ arasında strateji tərəfdaşlığa dair müvafiq sənəd imzalanıb, eləcə də bu istiqamətdə inkişaf məqsədilə Strateji İşçi Qrupu yaradılıb. Sənəd üç istiqaməti əhatə edir:

1. Enerji, ticarət və nəqliyyat;
2. Rəqəmsallaşma və süni intellekt məsələləri;
3. Müdafiə və təhlükəsizlik məsələləri.

Hər üç istiqamət olduqca mühüm siyasi-strateji və iqtisadi əhəmiyyətə malikdir. Dünyanın birnömrəli dövləti ilə qeyd edilən istiqamətlərdə münasibətlərin inkişafı, şübhəsiz ki, Azərbaycan iqtisadiyyatının da inkişafına töhfə verəcək. Regiona sülhün gəlməsi ilə müxtəlif sahələrə milyardlarla investisiyalar, yeni texnika və texnologiya cəlb ediləcək. Ölkəmizdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə orqanik kənd təsərrüfatı məhsulları istehsalı, müxtəlif xidmət sahələri, yenidən qurulan bu ərazilərdə rəqəmsallaşma və süni intellektdən istifadə kimi istiqamətlər amerikalı iş adamları üçün cəlbedici ola bilər. Aydındır ki, sülh yalnız siyasi qərar deyil, həm də uzunmüddətli iqtisadi tərəqqiyə açılan qapıdır. Bu mənada Cənubi Qafqazın əməkdaşlıq regionuna çevrilməsi ümumi iqtisadi tərəqqi üçün yeni imkanlar yaradacaq.

İqtisad elmləri doktoru qeyd edir ki, dövlət başçıları arasında dostluq münasibətləri, keçirilən yüksəksəviyyəli görüşlər ikitərəfli münasibətlərin inkişafı üçün mühümdür və liderlər diplomatiyası daha etibarlı, davamlı və intensiv münasibətlər formalaşdırır. Bu mənada Azərbaycan və ABŞ prezidentlərinin dostluq münasibətləri, bir çox məsələdə oxşar baxışları yeni strateji müttəfiqlik üçün sarsılmaz əsasdır.

# Sülh prosesində tarixi mərhələ

# Prezident İlham Əliyev bütün hədəflərinə nail olur



## Birgə Bəyannamə Azərbaycanın sülh çağırışında olduğunu bir daha göstərdi

**Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-yə səfəri və bu çərçivədə keçirdiyi görüşlər, nəticədə Birgə Bəyannamənin imzalanması Azərbaycan tarixinin qızıl səhifəsidir. Həmçinin "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" iki ölkə münasibətlərinə yeni nəfəs verir.**



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Vaşinqtonda imzalanan bütün sənədlər Azərbaycanın milli maraqlarına uyğundur: "Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması gözlənilən idi. Çünki Prezident İlham Əliyevin siyasi gedişləri, uğurlu diplomatiyası deməyə əsas verirdi ki, Azərbaycanla Ermənistan arasında münasibətlər mütləq yaxşılaşacaq və sülhə zəmin yaranacaq. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilən görüş, onun şahidliyi ilə imzalanan Birgə Bəyannamə bir daha göstərdi ki, Azərbaycan dünyaya sülh, əmin-amanlıq, təhlükəsizlik çağırışındadır və bu amallara sadiqdir".

Komitə sədri qeyd edib ki, bəyannamədə əksini tapan müddəalar Azərbaycanın bilavasitə nəzərdə tutduğu məsələləri özündə əks etdirir. Təhlükəsizliyin təmin olunması, dövlətlərin sərhədlərinin toxunulmazlığı, suverenliyinin, müstəqilliyinin qorunması, eləcə də Zəngəzur dəhlizinin açılması kimi çox mühüm müddəalar göstərir ki, bu bəyannamədə Prezident İlham Əliyevin fikirləri öz əksini tapıb. Sənəd hər iki dövlətin milli maraqlarına uyğun olmaqla bərabər, həm də Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması baxımından olduqca dəyərlidir. Uzun müddətdir ki, regionda münaqişələr, qarşıdurmalar, müharibələr hökm sürməkdədir. Azərbaycan, Gürcüstan, Ermənistan bu müharibələrdən böyük zərbələr alıb, xalqlar qurbanlar veriblər. Ancaq Azərbaycan 44 günlük Vətən müharibəsində, 23 saatlıq antiterror tədbirlərində qalib gəlməsinə baxmayaraq, ölkə rəhbəri daim sülhə, təhlükəsizliyə, qarşılıqlı münasibətlərə, əməkdaşlığa tərəfdar olduğunu bəyan edib və Ermənistanı bu yolda qətiyyətli addımlar atmağa çağırıb: "Azərbaycanla-Ermənistan arasında imzalanan Birgə Bəyannamə göstərdi ki, Prezident İlham Əliyev öz ideallarına, amallarına sadiqdir. Bəyannamədə Zəngəzur dəhlizinin "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlandırılması, gələcəkdə bu dəhlizin açılması ilə nəqliyyat infrastrukturunun genişləndirilməsi nəinki iki dövlət üçün, eləcə də region və dünya ölkələri üçün çox əhəmiyyətlidir. Ümumilikdə, bu, nəqliyyat imkanlarının artırılması üçün vacib layihədir. Bu görüşlərdə, imzalanma mərasimində ABŞ Prezidenti Donald Tramp hər iki ölkəyə sağlam münasibətlər, qarşılıqlı əməkdaşlıq arzulamaqla bərabər, həm də əlaqələrin genişləndirilməsi məsələlərinə diqqət çəkdi".

Komitə sədri vurğulayıb ki, ABŞ kimi böyük bir dövlətlə münasibətlərin yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsi Azərbaycanın gələcək inkşafı üçün vacibdir. Bu, Azərbaycanı bir daha dünyaya tanıtdırmaq, Prezident İlham Əliyevin diplomatik gedişlərini, uğurlarını sübut etmək baxımından dəyərlidir.

Ölkəmizin rəhbəri nəyi necə, nə vaxt etməyi bacarır. Bu görüşlər, imzalanan sənədlər bir daha sübut etdi ki, bu məsələ üzərində ölkə rəhbəri dönə-dönə düşünüb, planlar cızıb və reallıqları nəzərə alaraq, Birgə Bəyannamənin imzalanmasına razılıq verib. Bu gün Azərbaycan xalqı sevinir, öz prezidentinin uğurları ilə, onun diplomatik qələbələri ilə öyünür. Çünki bu qələbələr Azərbaycanı daha aydın sabahlara, xalqımızı xoşbəxt günlərə aparır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Sülh, sabitlik və rifah - Cənubi Qafqazın yeni reallığı

**Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında Ağ Evdə, Prezident Donald Trampın iştirakı ilə keçirilən görüşdə regiona üç onillikdən sonra sülh, sabitlik və firavanlıq gətirəcək tarixi sənəd - üçtərəfli Birgə Bəyannamə imzalandı. Bu sənədin özü qədər Vaşinqton formatı da regionda diplomatik balansın dəyişməsi deməkdir.**

Tramp qeyd edir ki, bir çox dövlət, təşkilat, rəhbər bu iki ölkə arasında sülhə nail olunmasına çalışıb: ATƏT, Avropa İttifaqı, "yuxulu" Bayden. Ancaq heç bir dövlət, qurum, heç bir Ağ Ev rəhbəri bu sülhdə vasitəçi olmağa və bunu həqiqətən gerçəkləşdirməyə nail ola bilməyiblər.

Buna diqqət çəkən Milli Məclisin deputatı Pərvanə Vəliyeva "Azərbycan" qəzetinə açıqlamasında bildirib ki, görüşdə mühüm məqamlardan biri Prezident Trampın bu sülhə nail olunmasında oynadığı böyük rolun və dəstəyin qarşılığında ona ehtiram əlaməti olaraq, "Nobel Sülh Mükafatı"na namizəd kimi göstərilməsi oldu. Dövlət başçımızın təklifi əsasında Ermənistanla birgə mükafat komitəsinə müvafiq məktubun ünvanlanacağı bəyan edildi: "Ən mühüm məqam isə odur ki, "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" artıq xarici işlər nazirləri səviyyəsində paraflanıb. Bu, mətn üzərində razılığın əldə olunması deməkdir, lakin imzalanma və ratifikasiya hələ qarşıdadır.



Yəni sənəd hələ hüquqi qüvvə qazanmayıb, amma prosesdə dönüş nöqtəsidir. Prezident İlham Əliyevin və baş nazir Nikol Paşinyanın Birgə Bəyannamənin arxasında dayanması, ABŞ Prezidentinin isə buna şahidlik etməsi beynəlxalq legitimlik baxımından tarixi dönüş nöqtəsi idi", - deyə o bildirib.

Deputat qeyd edib ki, iki ölkənin ATƏT-ə birgə müraciət etməsi 30 ildən artıq davam etmiş, lakin real nəticə verməmiş vasitəçilik mexanizminin rəsmi olaraq sona çatması deməkdir. Bu, çox böyük diplomatik irəliləyişdir. Bəyannamədə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz keçidin təmin edilməsi xüsusi vurğulanır. Bu isə Prezident İlham Əliyevin "Zəngəzur dəhlizi açılacaqdır" diktəsinin reallaşması deməkdir. Zəngəzur yolunun maneəsiz keçid olaraq açılması və dünya lideri Trampın bu yola "qarant" olması 3 ölkə, region üçün, hətta Asiya və Avropa üçün yeni dividendlər gətirəcək.

P.Vəliyeva vurğulayıb ki, Birgə Bəyannamə ilk növbədə qarşılıqlı fayda prinsipinə əsaslanır, bu isə hər iki tərəfin siyasi cəhətdən qəbul edə biləcəyi formul kimi görünür: "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adlı bağlantı layihəsi yeni diplomatik brenddir, adın birbaşa Donald Tramp ilə bağlanması onun prosesdə "zəmanətçi" olmasını simvolizə edir. Hesab edirəm ki, bu həm siyasi, həm də infrastruktur xarakterli nəhəng bir layihədir və iqtisadi cəhətdən çox böyük potensiala malikdir. İlk növbədə Azərbaycan xalqının sosial müdafiəsinin möhkəmləndirilməsinə, insanların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edəcək. Bəyannamə beynəlxalq sərhədlərin toxunulmazlığı, güc tətbiqi ilə ərazi əldə etmənin yolverilməzliyi kimi prinsipləri qəbul edir. Bu isə sülh gündəliyinin müəllifi Prezident İlham Əliyevin Ermənistan tərəfinə təqdim etdiyi sülh müqaviləsinin əsasını təşkil edən prinsiplərdən biridir. Bu prinsiplər bir-birinin suverenliyinin, ərazi bütövlüyünün, sərhədlərin toxunulmazlığının tanınması, bir-birinə qarşı ərazi iddiası ilə çıxış etməmək, güc tətbiq etməmək, güc tətbiqi ilə hədələməmək, sərhədlərin demarkasiyası və delimitasiyası, diplomatik münasibətlərin qurulması və kommunikasiyaların açılmasıdır. Sülh müqaviləsinin mətni də məhz Azərbaycan tərəfindən hazırlanıb və bunu erməni mətbuatı da təsdiqləyir".

Deputat bildirib ki, Birgə Bəyannamə həm revanşist yanaşmaların qarşısını almağa yönəlmiş siyasi mesajdır, həm də gələcəkdə sülhün davamlılığı üçün möhkəm baza yaradır. Qarabağdan köçmüş ermənilərin geri qayıdışına gəlincə, bu haqda oval ofisdə bir jurnalist tərəfindən ünvanlanan suala Paşinyan mikrofonu yandırsa da, həmin sualı cavabsız qoyub. Bu, o deməkdir ki, bu məsələ sülhün bir komponenti və müzakirə mövzusu deyil. 2023-cü il antiterror əməliyyatına qədər Ermənistan sülh müqaviləsinin layihəsinə Qarabağda yaşayan erməni sakinlərin məsələsinə dair bəndin salınmasını təkid edirdi. Azərbaycan isə bu məsələdə prinsipial olaraq vurğulayırdı ki, ölkənin daxili məsələsi dövlətlərarası sənədin subyekti ola bilməz. Diktə edilən qəbul edildi.

Tərəflərin bu görüşün möhkəm təməl yaratdığına əmin olduğunu bəyan etdiyini deyən deputat əlavə edib ki, ölkə rəhbərinin Donald Trampa uzun illərdir ki, ədalətli sülhü gözləyən Azərbaycan xalqı adından təşəkkürü də əlamətdar oldu: "Vaşinqton bu mərhələdə yalnız vasitəçi deyil, həm də prosesin uğuruna siyasi kapital qoyan tərəf mövqeyindədir. Bu həm də ABŞ-nin Cənubi Qafqaz siyasətində yeni fəallıq mərhələsinin başlanğıcını qoydu".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## ABŞ Prezidenti 907-ci düzəlişi ləğv etməklə müəyyən mesajlar verdi



*"Erməni lobbisinin təşəbbüsü ilə 1992-ci ildə ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək Aktı"na edilən 907-ci düzəliş, əslində, həmin vaxt Ermənistan tərəfindən təcavüzə məruz qalan Azərbaycana qarşı görünməmiş tarixi ədalətsizlik idi. Həmin düzəliş Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan etməklə Azərbaycanı Ermənistan qarşısında zəiflətməyə və təcavüzə kömək etməyə xidmət edirdi. Həm də bu o vaxt edilmişdi ki, Qərbi Azərbaycandan - indiki Ermənistandan və Qarabağ ərazisindən yüz minlərlə azərbaycanlı vəhşicəsinə qovulmuş və Azərbaycan böyük bir qaçqın axını ilə üzləşmişdi. Ən pisi də odur ki, bu düzəlişdən sonralar vaxtaşırı Azərbaycana qarşı təsir vasitəsi kimi də istifadə edilib.*

*Heç şübhəsiz, Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri, bu səfər çərçivəsində Vaşinqtonda keçirilən görüşlər, sərgilənən davranışlar, aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycan diplomatiyasının tarixi uğuru olmaqla yanaşı, həm də dövlətimizin başçısının siyasi iradə və qətiyyətinin təntənəsi oldu. Bu səfərin detalları hələ uzun müddət beynəlxalq siyasətçilər tərəfindən incələnəcək, təhlil ediləcək, öyrəniləcək".*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli söyləyib.

O bildirib ki, Vaşinqton səfərində Prezident İlham Əliyev Azərbaycan ordusunun, xalqının və dövlətinin 44 gün ərzində döyüşdə qazandığı Zəfəri siyasi müstəvidə bir daha nümayiş etdirdi, dünyaya ədalətli müharibə aparmaq təcrübəsi göstərdi, indi də dünyaya ədalətli sülh dərsi verdi.

"Azərbaycan-ABŞ münasibətlərində keçmişin xoşagəlməz mirası olan 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində sərəncam imzalanması da bu səfərin mühüm uğurları sırasındadır. Təsadüfi deyil ki, avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət çəkdi. Bildirdi ki, "Azərbaycanın hazırda belə bir xarici dəstəyə, xarici yardıma ehtiyacı yoxdur. Bizim iqtisadiyyatımız sabitdir. Bizim, yəni, dövlətin xarici borcu ümumdaxili məhsulun 7 faizindən də aşağıdır. Biz özümüzü donor ölkəyə çevirmişik. Beləliklə, rəmzi bir xarakter daşıyan bu düzəliş ləğv olundu. Bu ədalətsizlik artıq aradan qaldırılıb və ədalət bərpa olunub. Bu, bizim üçün Prezident Tramp tərəfindən siyasi bir jest oldu".

Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən 907-ci düzəlişin ləğvi zamanı belə bir incə məqamı da xüsusilə qeyd etdi ki, "bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunu məhz öz ofisində mənim iştirakım ilə etməsi böyük bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi".

Beləliklə, ABŞ Prezidenti bu hərəkəti ilə uzun müddət Azərbaycana qarşı ədalətsiz mövqe tutmuş dövlət və siyasət adamlarına da müəyyən mesajlar verdi", - deyə Ə.Ələkbərli vurğulayıb.

## Prezident İlham Əliyevin liderliyi: regionu yeni müharibələrdən qurtaran qətiyyət

**Azərbaycan Prezidenti İlham Əliyevin Vaşinqtona tarixi səfəri yalnız diplomatik uğur deyil, həm də beynəlxalq siyasi balansda mühüm dönüş nöqtəsi oldu. Bu səfər bir daha göstərdi ki, regionun gələcəyi Bakıdan başlayır, qərarlar isə Prezident İlham Əliyev səviyyəsində verilir. Vaşinqtonda keçirilən görüşlər zamanı Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipial mövqe, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etməsi beynəlxalq güclərə açıq və aydın mesaj oldu: Azərbaycanla yalnız bərabərhüquqlu əməkdaşlıq əsasında danışmaq mümkündür.**



Ermənistan tərəfi bunu nə qədər tez anlasa, bir o qədər az zərər görəcək. Əks halda bu təkcə onların özlərinə yox, prosesə zəmanət verən dövlətlərə - ilk növbədə ABŞ-yə və şəxsən Prezident Trampa açıq hörmətsizlik kimi qiymətləndiriləcək. Ermənistan məsələni yubatmamalı, süni maneələrlə prosesin qarşısını almamalıdır. Çünki artıq regionda oyun qaydaları dəyişib və bu qaydaları qalib lider - Prezident İlham Əliyev müəyyən edir.

Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Tural İsmayılov söyləyib. O bildirib ki, Vaşinqtonda əldə olunmuş razılaşmalar Bayden-Blinken Administrasiyası, Makron və onun timsalında Fransanın, həmçinin Avropa İttifaqının illərlə həyata keçirdiyi təzyiqlərlə Azərbaycanı güzəştlərə məcbur etmə siyasətinin tam iflası oldu. İllərlə Azərbaycana qarşı təşkil olunan qarayaxma kampaniyaları, sanksiya hədələri, beynəlxalq media vasitəsilə təzyiqlər - heç biri nəticə vermədi. Prezident İlham Əliyev bir addım da geri çəkilmədi, əsl liderə xas olan iradə və siyasi uzaqgörənlik nümayiş etdirdi.

"Bu gün artıq reallıq dəyişib. Dünən Azərbaycanla ultimatum dili ilə danışmağa çalışanlar bu gün sülhün, təhlükəsizliyin və sabitliyin Bakıdan keçdiyini qəbul edirlər. Regionda uzunmüddətli sülhün yeganə təminatçısı kimi Prezident İlham Əliyevin mövqeyi dəyişməz və alternativsizdir. Vaşinqton görüşlərində Azərbaycanın mövqeyi yalnız müdafiə olunmadı, həm də qəbul edildi və rəsmən tanındı.

Sülh prosesi artıq kağız üzərində deyil, real siyasi müstəvidə formalaşır. Prezident İlham Əliyev bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərkən, digər tərəfdən regionda sabitlik və əməkdaşlıq mühitini yaradaraq regionumuzu yeni müharibələrdən qorudu. Bu, sadəcə, diplomatik uğur deyil, yüzlərlə, minlərlə gəncimizin həyatının qorunması deməkdir.

Regionu yeni qanlı toqquşmalara sürükləməyə çalışan qüvvələr var idi - radikal dairələr, revanşistlər, geosiyasi maraqların qurbanına çevrilmiş qruplar. Amma Azərbaycan bu oyunları pozdu. Liderin qətiyyəti, dövlətin gücü, xalqın birliyi bu fitnəkar niyyətləri alt-üst etdi. Prezident İlham Əliyev təkcə müharibədə qalib gəlmədi, həm də postmüharibə dövründə sülhü təmin edən lider kimi tarixə düşdü.

Əldə olunan uğurlar təkcə bu günün deyil, gələcəyin də zəmanətidir. Dövlətimizin başçısının iradəsi ilə Azərbaycan bölgədə etibarlı tərəfdaş, sülh və sabitlik adası kimi öz yerini daha da möhkəmləndirir. Bu isə həm region ölkələrinin, həm də beynəlxalq ictimaiyyətin maraqlarına xidmət edir. Sülh prosesində liderlik edən İlham Əliyevin strateji xətti - qələbə ilə nəticələnmiş müharibəni sülhə çevirmək missiyası uğurla icra olunur", - deyə T.İsmayılov vurğulayıb.

Politoloq diqqətə çatdırıb ki, Azərbaycan diplomatiyasının son illərdə qazandığı ardıcıl uğurların əsasında məhz Prezident İlham Əliyevin düzgün, prinsipial və milli maraqlara əsaslanan siyasəti dayanır. Vaşinqton səfəri bu uğurların növbəti zirvəsi oldu. Siyasi arenada qətiyyətli, diplomatik masada prinsipial, xalq qarşısında məsuliyyətli bir lider obrazı bu gün dünya üçün nümunəyə çevrilib.

Bu gün regionda dəyişən reallıqlar fonunda Ermənistan üçün seçim çox aydındır: ya sülh, ya da tam təcrid. Amma bu dəfə qərarı artıq Bakı diktə edir. Qalib Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız öz gələcəyini deyil, bütün regionun sabitlik modelini formalaşdırır. Bu model isə sülh, inkişaf və əməkdaşlıq üzərində qurulub.

# Sülh prosesində tarixi mərhələ



# İLHAM ƏLİYEV YOLU

## Zəfər diplomatiyasının müəllifi, 200 illik münaqişəyə son qoyan Lider

**Ötən həftə dünyanın diqqətinin yönəldiyi Vaşinqtonda tarixi hadisələr yaşandı. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə Cənubi Qafqazın müasir tarixində dönüş nöqtəsi kimi yaddaşlara yazıldı.**

Beş il öncə Azərbaycan öz gücünə cəmi 44 günə 30 illik Qarabağ münaqişəsini hərb yolu ilə həll etdi. Amma məğlub Ermənistan sülh sazişini bağlamamaq üçün müxtəlif imitasiyalara əl atdı. Lakin nəyi nə zaman edəcəyini hər kəsdən yaxşı bilən Prezident İlham Əliyev diplomatik məharəti ilə 200 illik erməni uydurmasına birdəfəlik son qoydu.

Sülh müqaviləsinin paraflanması ilə cənab İlham Əliyev beynəlxalq müstəvidə Azərbaycanın düşmənlərinin, xüsusən "bu gün-sabah Azərbaycan Zəngəzuru tutacaq", - deyib gecə-gündüz ölkəmizə iftira yağdıranların əlini-qolunu bağladı, onların arqumentlərini əllərindən aldı, ölkəmizin qlobal imicini daha da yaxşılaşdırdı.

Zəngəzur dəhlizi məsələsi İlham Əliyevin dahi gedişlərindən biridir. Aydındır ki, bu təşəbbüslə Laçın yoluna qarşı əks balansın yaradılması da nəzərdə tutulurdu. Ermənistan sadəlövhcəsinə düşünürdü ki, Azərbaycan Qarabağda öz məqsədlərinə tam nail olandan sonra Zəngəzur dəhlizini unudacaq, sakitləşəcək. Amma əksinə oldu.

İlham Əliyevə dəfələrlə bu barədə sual veriləndə, Prezident konkret olaraq deyirdi ki, bu yol açılacaq! Dedi və etdi də...

Təxminən 5 ildir ki, Ermənisan məsələni yubatmağa çalışırdı. Bu ölkə "Sülh kəsişməsi" adlı utopik layihə irəli sürərək oyunbazlıqla məşğul olmasına baxmayaraq, Azərbaycan ən böyük məqsədlərindən birinə - Zəngəzur dəhlizinin açılmasına nail olur. "Tramp yolu" adlanmasına baxmayaraq, hamı başa düşür ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir. Azərbaycan ilk gündən təkid etdiyi maneəsiz gedişə nail olur. Ona görə də bu yolun bizim üçün bir adı var - İlham Əliyev yolu.

Həm Prezident, həm də Ali Baş Komandan kimi ölkəmizə rəhbərlik etdiyi ilk gündən İlham Əliyev bütün tribunalardan Azərbaycan xalqının heç vaxt işğalla barışmayacağını bəyan edirdi, "Nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq", - deyirdi və belə də oldu.

Məhz İlham Əliyevin diplomatiyası sayəsində onilliklərdir davam edən Azərbaycan-Ermənistan münaqişəsi yalnız hərbi qələbə ilə deyil, həm də beynəlxalq hüquq çərçivəsində təsbit olunmuş sülh razılaşması ilə başa çatmaq üzrədir.

Siyasi və diplomatik təzyiqlərə, beynəlxalq mediada təşkil olunan qarayaxma kampaniyasına, sanksiya hədələrinə baxmayaraq, İlham Əliyev bir addım belə geri çəkilmədi, əsl liderə xas olan qəyiyyət və prinsipiallıq nümayiş etdirdi, siyasi strategiyasını tam həcmdə uğurla reallaşdırdı.

Dünən Azərbaycanla təzyiq dilində danışmağa çalışanlar, bu gün reallığı qəbul etmək məcburiyyətindədirlər. Bu, qalib Prezident, regiona sülh gətirən İlham Əliyevin, Azərbaycan diplomatiyasının növbəti zəfəridir.

Vaşinqton səfərinin nəticələri və regionumuzda davamlı sülhün təmin olunması üçün görülən işlər, İlham Əliyevin sülh prosesində liderliyi regionumuzu yeni müharibələrdən xilas etdi. Bəllidir ki, regionumuzu müharibələrə sürükləməyə çalışan şər qüvvələr var. Amma İlham Əliyev müharibədə qələbəni təmin edərək Azərbayacnın ərazi bütövlüyünü və suverenliyini tam bərpa edərək uğurla sülh gündəliyini də reallaşdırdı. Bu, regionumuzu, ölkəmizi yeni bəlalardan xilas etmək deməkdir.

ABŞ Prezidenti Donald Trampın "İlham Əliyevlə işləmək şərəfdir" bəyanatı təkcə diplomatik kompliment deyil, həm də liderin beynəlxalq legitimliyinin ABŞ səviyyəsində rəsmən təsdiqidir. Bu, İlham Əliyevin regional təhlükəsizlik memarı kimi qəbul edildiyini göstərir. İlham Əliyev həm hərbi mərhələdə, həm də post-konflikt diplomatiyasında həmin modelin uğurlu tətbiqini nümayiş etdirdi.

Azərbaycan və ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması niyyətini liderlər təsdiqlədi. Dünyanın bir nömrəli gücü ABŞ ilə strateji tərəfdaşlığa nail olmaq istənilən ölkənin marağındadır.

Bundan öncə Bayden-Blinken administrasiyasının məqsədi Azərbaycanı qaralamaq, gözdən salmaq idi. Antiterror tədbirlərindən, yəni suverenliyimizin tam təminatından sonra Azərbaycandan rəsmi nümayəndə heyətinin səfərlərini təxirə salmışdılar. Hətta ABŞ-də Azərbaycana qarşı sanksiyalar barədə düşünənlər var idi. Lakin Azərbaycan bütün bu təzyiqlərin qarşısında sınmadı, ləyaqətini itirmədi, milli maraqlarından bir addım belə çəkilmədi.

Bundan sonra strateji tərəfdaşlıq çərçivəsində Azərbaycan və ABŞ enerji, nəqliyyat və ticarətdən tutmuş, süni intellekt, müdafiə sahəsinə qədər çoxsaylı istiqamətlər üzrə əməkdaşlıq edəcəklər. Artq Vaşinqtonda SOCAR-la "ExxonMobil" şirkəti arasında əməkdaşlıq memorandumu imzalanıb.

O ki qaldı sülh müqaviləsinin tezliklə imzalanmasına, bu daha çox Ermənistandan asılıdır. Əgər İlham Əliyevin şərtləri tez bir zamanda yerinə yetirilərsə, yəni İrəvan üzərinə düşən məsuliyyətə əsasən konstitusiysında dəyişikliklər edərsə, sənəd imzalana bilər. Ermənistan bu məsələni yibatmamalıdır, əks təqdirdə bu ilk növbədə ABŞ-yə və şəxsən Prezident Trampa hörmətsizlik olacaq. Ermənistan bu istiqamətdə nə qədər tez addımlar atsa, öz xeyrinə olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Təbrik, cənab Prezident!

Başınız həmişə ucalarda!
Millətin şərəfisiniz!
Tariximizi yaşadırsınız!
Tariximiz Sizsiniz -
Əsrlərə aparırsınız -
Əbədiyyətə!
Əbədiyyət Sizsiniz!
Cansağlığı!
Yaşayın, yaşadın!
Həmişə!

***Nəriman HƏSƏNZADƏ,***
***Azərbaycanın Xalq şairi***

*Bakı şəhəri, 11 avqust 2025-ci il*



## Macarıstan, Sloveniya, Polşa, Serbiya , Monteneqro, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Liviya, Oman, Qətər, Küveyt Xarici İşlər nazirlikləri Ermənistan və Azərbaycan arasında əldə edilmiş sülh razılaşmasını alqışlayırlar

Sloveniya Azərbaycan və Ermənistan liderlərini sülh müqaviləsinə görə, həmçinin onilliklərdən bəri davam edən münaqişəyə son qoyulmasına yol açan ABŞ Administrasiyasını roluna görə alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Sloveniya Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Paylaşımda həmçinin qeyd edilir ki, bu, şübhəsiz ki, region üçün yeni imkanlar və rifah gətirəcək.

* * *

Azərbaycan və Ermənistan liderləri tərəfindən razılaşdırılmış tarixi bəyannaməni məmnuniyyətlə alqışlayırıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Polşa Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Paylaşımda həmçinin qeyd edilir ki, ABŞ-nin dəyərli dəstəyi ilə əldə olunmuş bu razılaşma bölgədə suverenliyə və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında sabitlik və davamlı sülhün yolunu açır.

* * *

Serbiya avqustun 8-də ABŞ-nin himayəsi ilə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannaməni alqışlayır və hər iki tərəfin konstruktiv fəaliyyətini yüksək qiymətləndirir.

AZƏRTAC xəbər verir ki, bu barədə Serbiya Xarici İşlər Nazirliyinin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilir.

Bu uğurun əldə edilməsində ABŞ Prezidenti Donald Trampın çox mühüm rolu xüsusi vurğulanır.

"Birgə Bəyannamə Cənubi Qafqazda davamlı sülh, sabitlik və firavanlıq yolunda mühüm addımdır. Serbiya qarşılıqlı hörmət və beynəlxalq hüquq və qaydaya tam riayət əsasında bütün ölkələr arasında dinc dialoq, regional əlaqə və genişləndirilmiş əməkdaşlığın tərəfdarı olmaqda davam edəcək", - deyə paylaşımda qeyd olunur.

* * *

Monteneqronun Xarici İşlər Nazirliyi Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtonda keçirilmiş görüşə dair imzaladığı Birgə Bəyannaməni alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə nazirliyin "X" sosial şəbəkəsindəki paylaşımında bildirilib.

"Monteneqro Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış sülh sazişini alqışlayır və xüsusi vasitəçilik roluna görə ABŞ-yə təşəkkürünü bildirir. Biz Cənubi Qafqazda davamlı sülh və sabitliyə doğru atılan bu mühüm addımı yüksək qiymətləndiririk", - deyə paylaşımda qeyd edilir.

* * *

Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Liviya, Oman, Qətər, Küveyt ABŞ-nin iştirakı ilə Ermənistan və Azərbaycan arasında əldə edilmiş sülh razılaşmasını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu, adı çəkilən ölkələrin XİN-lərinin bəyanatlarında yer alır.

Bəyanatlarda, bu razılaşmanın iki ölkə arasındakı əməkdaşlıqda və qonşuluq münasibətlərində yeni mərhələnin başlanğıcı olacağına inam ifadə olunur. Qafqaz regionunda sabitlik və inkişafın əsaslarını möhkəmləndirəcək bu tarixi razılaşma yüksək qiymətləndirilir, ABŞ-nin münaqişələrin diplomatik yollarla həllinə və gərginliyin azaldılmasına yönəlmiş səyləri təqdir edilir.

* * *

Macarıstanın xarici işlər naziri Peter Siyarto Azərbaycan ilə Ermənistan arasında Vaşinqtonda imzalanmış Birgə Bəyannaməni "həm Qafqazda, həm də dünyada təhlükəsizliyə doğru böyük addım" adlandırıb.

AZƏRTAC xəbər verir ki, bu barədə o, sosial şəbəkədəki səhifəsində paylaşım edib. "Donald Tramp bir daha göstərdi ki, o, sülh gündəminin prezidentidir. İndi biz ümid edirik ki, Hindistan-Pakistan, İran-İsrail və Ermənistan-Azərbaycan [münaqişələrinin] həllindən sonra Ukrayna ilə Rusiya arasındakı münaqişəyə də son qoyulacaq", - deyə Macarıstanın xarici işlər naziri yazıb.

## Türkiyə Nazirlər Kabineti Azərbaycan-Ermənistan sülh prosesini və Zəngəzur dəhlizinin açılmasını müzakirə edəcək



**Türkiyə Nazirlə Kabinetinin Prezident Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçiriləcək bugünkü iclasının gündəliyinə Azərbaycan-Ermənistan sülh prosesi və Zəngəzur dəhlizinin açılması məsələləri də daxil edilib.**

AZƏRTAC xəbər verir ki, hökumət üzvləri paytaxt Ankaranın "Beştepe" rayonunda yerləşən Prezident sarayında toplaşacaq.

Türkiyə mediasında yer alan xəbərlərə görə, Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda keçirilmiş görüşünün yekunları, həmçinin tərəflər arasında imzalanmış sənədlərin sabitliyə və regionda ticari münasibətlərə təsiri müzakirə ediləcək.

İclasda, həmçinin parlamentdə aparıcı siyasi partiyaların deputatlarının iştirakı ilə xüsusi komissiyanın da yaradıldığı "Terrorsuz Türkiyə" prosesi ətrafında fikir mübadiləsi aparılacaq.

Nazirlər Kabinetinin iclasında daxili iqtisadi və sosial məsələlərlə yanaşı, regionda, o cümlədən Suriyada vəziyyətin müzakirə ediləcəyi də gözlənilir.

## BMT Baş katibi Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannaməni alqışlayıb



**"BMT Baş katibi Antonio Quterreş Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampla birgə imzaladığı Birgə Bəyannaməni Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasında mühüm mərhələ kimi alqışlayır".**

AZƏRTAC-ın məlumatına görə, bu barədə BMT Baş katibinin sözçüsü Stefan Dujarrikin bəyanatında deyilir.

Bildirilir ki, Baş katib Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın davamlı dialoq və etimadın yaradılmasına sadiqliyini alqışlayır və Prezident Trampın tərəqqiyə kömək etmək səylərini tanıyır. "Baş katib Cənubi Qafqazda davamlı sülhün bərqərar olması üçün bütün səylərə Birləşmiş Millətlər Təşkilatının güclü dəstəyini bir daha təsdiqləyir", - deyə bəyanatda vurğulanır.

## *Avropa Şurasının Baş katibi:* "Ermənistan və Azərbaycan - davamlı sülhə doğru tarixi bir addım"




**"Vaşinqtonda Ermənistan və Azərbaycan arasında sülh sazişinin paraflanmasını səmimi-qəlbdən alqışlayıram. Bu sənəd iki ölkə arasında uzun illər davam edən münaqişənin yekun həlli istiqamətinə yol açır. Hər iki ölkə 2001-ci ildən bəri Avropa Şurasının üzvləridir və bu addım Cənubi Qafqazda davamlı sülhə doğru tarixi bir mərhələni ifadə edir".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurasının Baş katibi Alain Berset bəyanatında qeyd edib.

Baş katib bildirib ki, regionun sabitliyi yalnız Ermənistan və Azərbaycan üçün deyil, həm də qonşu Gürcüstan da daxil olmaqla bütün xalqlar üçün rifah və təhlükəsizlik baxımından həyati əhəmiyyət daşıyır: "Mart ayında hər iki ölkə "Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında" saziş layihəsinin yekunlaşdırıldığını elan etdikdə, bu irəliləyiş məni xüsusilə ruhlandırdı. Həmin vaxtdan bu yana bu mövzu liderlərlə daimi müzakirələrimin əsasını təşkil edib. İlk dəfə bu məsələni keçən il Bakıda COP tədbiri zamanı Prezident İlham Əliyevlə müzakirə etmişdim. Bu ilin aprelində Antalyada keçirilən Diplomatiya Forumunda ikitərəfli görüşümüzdə də məsələ gündəmdə idi. May ayında Tiranada keçirilən Avropa Siyasi Birliyi Sammitində Prezident İlham Əliyevə, eləcə də Baş nazir Nikol Paşinyana, sülhə dəstək mesajımı şəxsən çatdırdım və son olaraq iyulda Yerevana rəsmi səfərim zamanı bunu bir daha vurğuladım", - deyə bəyanatda bildirilir.

"Onilliklər boyu davam edən etimadsızlıq, ərazi mübahisələri və humanitar çağırışların aradan qaldırılması hər iki tərəfdən çətin, lakin zəruri kompromisləri tələb edir. Biz hər iki ölkəni sülhə doğru atdığı bu mühüm addımı davam etdirməyə təşviq edirik", - deyə bəyanatda, həmçinin hər iki ölkənin liderləri və vətəndaşları göstərdikləri siyasi iradəyə və cəsarətə görə təqdir olunub.

# Azərbaycan-ABŞ əməkdaşlığı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

## Xarici ölkələrin mətbuatı Vaşinqtonda keçirilən Sülh Sammitini diqqətdə saxlayıb




Avqustun 8-də Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən görüş Cənubi Qafqazda 35 il davam edən münaqişəyə son qoyulmasına dair Birgə Bəyannamənin imzalanması ilə nəticələnib və bu, regionda davamlı sülh və sabitliyin bərqərar olması yolunda böyük addım oldu. Vaşinqtonda keçirilən görüş Azərbaycan liderinin döyüş meydanında qazandığı qələbədən sonra diplomatik qələbəsi olub.

Bu barədə Türkiyənin "Hürriyyet" qəzetində bazar günü dərc olunan məqalədə deyilir.

Materialda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözləri sitat gətirilir: "Prezident İlham Əliyev təxminən beş il əvvəl Qarabağ müharibəsində qələbə qazanıb, bu gün isə Vaşinqtonda Azərbaycan lideri sülh yolunda qələbəyə nail olub".

Qəzetdə qeyd edilir ki, Bakı ilə İrəvan arasında yekun sülh sazişinin imzalanmasına bir neçə addım qalıb. "Bu istiqamətdə Ermənistan Konstitusiyasına yenidən baxılması və ATƏT-in Minsk qrupunun fəaliyyətinə xitam verilməsi vacibdir", - deyə məqalədə vurğulanır.

Qəzetdə yazılır ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında yeni nəqliyyat marşrutunun açılması istiqamətində işlərin bir il ərzində başa çatdırılması gözlənilir.

Məqalədə Türkiyənin bölgədə sülh və sabitliyə yaxınlaşması işinə verdiyi töhfəyə xüsusi diqqət yetirilir.

Türkiyə ilə Azərbaycan liderləri arasında dünənki telefon danışığından bəhs edilib, söhbətdə Türkiyə tərəfi danışıqlar prosesindəki irəliləyişdən məmnunluğunu ifadə edib.

* * *

Qərbi Balkan ölkələrinin aparıcı media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın Ağ Evdə ABŞ Prezidenti Donald Trampla keçirdikləri görüşə geniş yer ayırıb.

Bosniya və Herseqovinanın radio-televiziya kanalının (BHRT) və "N1info" portalının yaydığı materiallarda Prezident İlham Əliyev, Donald Tramp və Nikol Paşinyanın Vaşinqtondakı görüşə dair Birgə Bəyannamə imzaladıqları qeyd olunur.

"TV K3" televiziya kanalının və "Naslovi" portalının yazında isə vurğulanır ki, Azərbaycan və Ermənistan liderləri ölkələr arasında onilliklərlə davam edən münaqişəyə son qoyub və Cənubi Qafqaz regionunda əsas nəqliyyat marşrutu açmaq barədə razılığa gəliblər.

"Balkan Magazin" və "Buka" portalları isə Azərbaycan Prezidenti İlham Əliyevin "Biz Cənubi Qafqaza sülh gətiririk" sitatına yer verib, 35 ildən artıq müddətdə davam edən münaqişəyə son qoyulduğu və bunun bütün region üçün böyük əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Serbiyanın "Tanjug" və "Danas" xəbər agentliklərinin, eləcə də "NSPM" portalının dərc etdiyi yazılarda Birgə Bəyannamədə liderlərin Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Sazişin razılaşdırılmış mətninin paraflanmasına şahidlik etdikləri qeyd olunur. Bildirilir ki, Donald Tramp Prezident İlham Əliyev və Nikol Paşinyanla ayrıca sazişlər imzalayıb.

"Nova" portalının materialında isə görüş zamanı əldə olunan razılaşmanın onilliklərlə davam edən münaqişələrdən sonra iki ölkənin iqtisadiyyatını gücləndirəcəyini gözlənildiyi qeyd olunur.

Şimali Makedoniya mətbuatının yaydığı materiallarda da Birgə Bəyannamənin ABŞ-nin nəzarəti altında əsas nəqliyyat dəhlizinin yaradılması üzərində birgə işləməyi, iki ölkə arasında ticarət, səyahət və diplomatik əlaqələrin inkişafını nəzərdə tutdu vurğulanır.

* * *

Müqəddəs Taxt-Tacın informasiya resursları Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanın Vaşinqtondakı görüşünü diqqətdə saxlayıb.

Vatikanın yeganə rəsmi mətbuat orqanı olan "L'Osservatore Romano" qəzetinin yazısında üç ölkə liderinin Ağ Evdə Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqtondakı görüşünə dair Birgə Bəyannamə imzaladıqları bildirilir.

"Catholic News Agency" isə yaydığı materialda görüşün əhəmiyyətini vurğulayıb, Prezident İlham Əliyevin sülh sammitinin Azərbaycan və Ermənistan arasında tarixi xarakter daşıdığını qeyd etdiyi bildirilib. Eyni zamanda "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun tamamlanması və icra olunmasının əhəmiyyətinə diqqət yetirilib.

İtaliyanın katolik icmasına məxsus olan "Faro di Roma" qəzeti də Birgə Bəyannaməni uzun illərdir müharibə aparan və minlərlə insanın ölümü ilə nəticələnən iki xalq arasında tarixi sülh sazişi kimi qiymətləndirib.

* * *

Xorvatiya mətbuatında Vaşinqtonda reallaşan Azərbaycan-Ermənistan sülh sammiti geniş işıqlandırılıb.

Xəbər portalları Cənubi Qafqazda yeni siyasi axının göstəricisi kimi bu razılaşmanın strateji əhəmiyyətini vurğulayırlar.

"Jutarnji List" nəşri xəbər verir ki, 35 illik münaqişənin ardından ABŞ vasitəçiliyi ilə imzalanan sülh sazişi tərəflərin dost olaraq qalmalarının zəmanəti kimi qiymətləndirilib. Razılaşmaya strateji tranzit dəhlizinə dair ABŞ-yə eksklüziv inkişaf hüquqları da daxildir.

"Vecernji.hr" nəşri isə bunu Qafqazda "Tramp triumfu" adlandırır. Bildirilir ki, razılaşma nəticəsində ABŞ bölgədə strateji dəhlizə 99 illik nəzarət əldə edəcək.

"Index.hr" xəbər portalı yazır ki, "Onilliklər boyu düşmənlik qurtardı - Tramp qarşısında sülh imzalandı; Putin bundan razı qalmayacaq". Məqalədə vurğulanır ki, bu sülh razılaşması ABŞ-ın regional təsirini artıraraq, Rusiyanın dominant mövqeyini zəiflədə bilər.

"Dnevnik.hr" nəşri isə qeyd edir ki, Ermənistan və Azərbaycan Ağ Evdə münaqişəni rəsmi olaraq sona çatdıraraq yeni dostluq səhifəsinə imza atıblar.

"Glas Istre" xəbər portalında sülh razılaşmasının iqtisadi canlanmaya yol açacağı və uzunmüddətli sabitliyin təminində əsas rol oynayacağı qeyd edilir.

Xorvatiya mediası yekdilliklə vurğulayır ki, Vaşinqtonda imzalanan sülh sazişi Cənubi Qafqazda yeni siyasi reallığın başlanğıcıdır.

* * *

Moldovanın nüfuzlu media orqanları Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtonda keçirilən görüşü və əldə olunan mühüm razılaşmaya geniş diqqət ayırıb.

"Noi.md", "Point.md", "Newsmaker.md" və digər xəbər portallarında dərc olunan məqalələrdə Azərbaycan ilə Ermənistan arasında münaqişənin həlli ilə bağlı bəyannamənin əhəmiyyətinə xüsusi yer verilib. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın Baş naziri Nikol Paşinyanın ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Birgə Bəyannaməni imzalamalarının çoxillik münaqişəyə son qoyduğu və regionda əməkdaşlıq üçün yeni imkanlar açdığı qeyd edilib.

Məqalələrdə həmçinin Moldova Prezident Maya Sandunun "X" sosial şəbəkəsində razılaşmaya dəstək fikirləri də yer alıb. Sandu bildirib ki, Ermənistan və Azərbaycan arasında razılaşma onilliklər boyu davam edən düşmənçiliyə son qoymaq yolunda mühüm addımdır. Moldova Prezidenti Bakının və İrəvanın rəhbərlərini, eləcə də Prezident Donald Trampı bölgədə sülhə, barışığa və rifahın yüksəldilməsinə yol açmaqda xidmətlərinə görə təbrik edib.

* * *

Malayziyanın ən böyük xəbər istehsalçısı olan BERNAMA dövlət informasiya agentliyi, əhatə dairəsinə görə Cənub-Şərqi Asiyada tanınmış "New Straits Times" qəzeti, eləcə də "Malay Mail", "Free Malaysia Today" və "The Edge Malaysia" kimi nüfuzlu onlayn xəbər portalları Ağ Evdə keçirilən üçtərəfli görüşdə liderlərin uzunmüddətli sülhün bərqərar olması barədə razılığa gəldiklərini yazıb.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanın Donald Trampın Nobel Sülh mükafatına namizəd göstərilməsi təşəbbüsünü də elan etdikləri qeyd olunub. Vurğulanıb ki, saziş bölgədə kommunikasiya xətlərinin, o cümlədən Naxçıvana birbaşa tranzit yolunun yaradılmasını da nəzərdə tutur.

*AZƏRTAC*

## *Papa LEO:* "Birgə Bəyannamənin Cənubi Qafqazda sabit və davamlı sülhə töhfə verəcəyinə ümidvaram"

**"Roma Katolik Kilsəsinin rəhbəri Papa XIV Leo avqustun 8-də ABŞ-ın himayəsi ilə Vaşinqtonda Azərbaycan və Ermənistan arasında imzalanmış Birgə Bəyannaməni alqışlayır".**



AZƏRTAC xəbər verir ki, pontifik ənənəvi "Angelus" duası zamanı Birgə Bəyannamənin davamlı sülhə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

"Bunun (Birgə Bəyannamənin) Cənubi Qafqazda sabit və davamlı sülhə töhfə verəcəyinə ümidvaram", - deyə Roma Papası vurğulayıb.

## Şimali Kipr Türk Cümhuriyyətinin Milli Birlik Partiyası Vaşinqton görüşünün yekunları münasibətilə Azərbaycanı təbrik edib

**"Azərbaycan ilə Ermənistanın Birgə Bəyannaməsi Cənubi Qafqaz regionunda uzunmüddətli sülh, sabitlik və inkişafla bağlı ümidləri gücləndirib".**



AZƏRTAC xəbər verir ki, bu barədə Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) aparıcı siyasi qüvvələrindən biri olan Milli Birlik Partiyasının (UBP) baş katibi Oğuzhan Hasipoğlu bildirib.

Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən görüşün yekunlarını şərh edən UBP-nin baş katibi Zəngəzur dəhlizinin açılması şərtlərini özündə ehtiva edən sənədin imzalanmasını tarixi hadisə adlandırıb.

Siyasətçi vurğulayıb ki, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasındakı marşrut türk dünyasının daha da möhkəmlənməsinə mühüm töhfə verəcək.

"Azərbaycan Prezidenti İlham Əliyevi və Vaşinqton görüşünün uğurla keçməsinə töhfə verən hər kəsi təbrik etmək istərdim", - deyə siyasətçi ŞKTC əhalisinin Azərbaycan xalqının qürurunu bölüşdüyünü vurğulayıb.

Qeyd edək ki, UBP ŞKTC parlamentində ən böyük fraksiyaya malikdir, onun sədri Ünal Üstel isə Şimali Kiprin koalisiya hökumətinə rəhbərlik edir.

## *Yuri BOÇAROV:* "Zəngəzur dəhlizi regional əməkdaşlığın yeni mərhələsini açır"

**"Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində əldə olunan tarixi irəliləyişdən sonra Zəngəzur nəqliyyat dəhlizinin gündəmə gəlməsi Cənubi Qafqazın iqtisadi və geosiyasi mənzərəsini köklü şəkildə dəyişəcək".**



Bu fikri AZƏRTAC-a açıqlamasında israilli politoloq Yuri Boçarov ifadə edib.

Onun sözlərinə görə, Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə regionu yeni əməkdaşlıq mərhələsinə çıxarır və Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir.

"Azərbaycan Mərkəzi Asiyanı Avropa ilə birləşdirən əsas tranzit qovşağına çevrilir. Türkiyə türk dünyası ilə quru əlaqəsini gücləndirir, Ermənistan isə iqtisadi təcriddən çıxaraq regional tərəfdaşlığa inteqrasiya edir. Bu marşrut həm də ABŞ-nin regionda mövcudluğunu artırır ki, bu da geosiyasi balansın dəyişməsi deməkdir", - deyə Boçarov vurğulayıb.

O qeyd edib ki, ABŞ, Türkiyə, Azərbaycan, Mərkəzi Asiya ölkələri və hətta Ermənistanın dəhlizin reallaşmasında maraqlı olması layihənin uğur şanslarını xeyli artırır.

"Prezident İlham Əliyev güclü beynəlxalq dəstəyə malikdir. Onun siyasi iradəsi və uzaqgörən strategiyası Azərbaycanı yenidən region gündəminin mərkəzinə çıxarır. Bu, Azərbaycanın qətiyyətli diplomatiyasının növbəti uğurudur", - deyə israilli politoloq əlavə edib.

## *TBMM-in sabiq deputatı:* "Azərbaycan qlobal nəqliyyat şəbəkəsinin mərkəzinə çevriləcək"

"Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi paraflandı. Beynəlxalq münaqişələrin və böhranların intensivləşdiyi bir vaxtda sülh naminə atılan bu addım bölgənin sabitliyi üçün çox önəmlidir. Bu müqavilənin Azərbaycan üçün vacib olan əsas məqamları bölgədə davamlı sülhün təmini, bu istiqamətdə verilən vədlərin tutulmasıdır. Burada ilk müsbət addım ABŞ tərəfindən Azərbaycana haqsız olaraq tətbiq edilən 907-ci düzəlişin ləğvidir. Müqavilənin ən kritik maddəsi isə Azərbaycanın qərb hissəsini Naxçıvan üzərindən Türkiyəyə bağlayacaq Zəngəzur dəhlizinin gələcəyidir. Bu dəhlizin fəaliyyətə keçməsi Orta dəhliz kimi tanınan tarixi İpək yolunun əhəmiyyətini daha da artıracaq".

Bunu AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq deputatı Yavuz Subaşı bildirib.

Vaxt keçdikcə Azərbaycanın Asiya ilə Avropa arasında qlobal nəqliyyat şəbəkəsinin mərkəzi ölkəsinə çevriləcəyini ifadə edən sabiq deputat deyib: "Sülhün və əmin-amanlığın hökm sürdüyü Cənubi Qafqaz həm regional, həm də qlobal strateji mərkəz olacaq ki, bunun da əsas təməli rəsmi Bakıdır. Təkrar qeyd etmək istəyirəm ki, burada ən vacib məsələ Ermənistanın verdiyi sözlərə sadiq qalması və razılaşmalara uyğun hərəkət etməsidir. Vaşinqtonda imzalanan bəyannamə ilə ATƏT-in Minsk qrupu da etibarsız hala gəldi. Ermənistanın Qarabağı işğal etməsindən sonra bu məsələsinin həlli üçün yaradılmış bu qurumun faydasızlığı hər birimizə bəllidir. Azərbaycan özü Qarabağı işğalından azad etdi. Vaşinqton Zirvəsində imzalanan Birgə Bəyannamə ilə bu qrupun funksiyası da aradan qaldırıldı".

Yavuz Subaşı bildirib ki, Türkiyə hər zaman və hər şəraitdə Azərbaycanın mənafeyinə uyğun olan hər addımı dəstəkləyib və bundan sonra da dəstəkləməyə davam edəcək: "Arzu edirəm ki, bu müqavilə Azərbaycanın inkişafı və güclənməsinə, həm qlobal, həm də regional güc kimi yoluna davam etməsinə töhfə versin".

## *Hilmi DAŞDEMİR:* "Azərbaycan Prezidentinin sülh yolunda atdığı addım olduqca vacib və dəyərlidir"

**"Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin iştirakı ilə imzalanmış bəyannamə olduqca mühümdür. Bu, bizə ATƏT-in Minsk qrupunun prosesə gözlənən töhfəni vermədiyini və ləğvini, eləcə də yeni mərhələyə keçildiyini göstərmiş oldu".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Optimar" Araşdırma Mərkəzinin rəhbəri, siyasi ekspert Hilmi Daşdemir səsləndirib.

Yeni mərhələyə keçidin ən mühüm məqamlarından birinin Azərbaycan ilə Türkiyə və bunun davamı olaraq digər ölkələrə açılan dəhlizin reallaşması olduğunu vurğulayan ekspert deyib: "Bu dəhlizin bölgə üçün ən böyük faydalarından biri rifahın artırılması, eləcə də yeni İpək yolu ilə birləşəcək olmasıdır. Azərbaycanla Naxçıvanı quru yolu vasitəsilə birləşdirəcək bu dəhliz nəinki Azərbaycan, Türkiyə və Ermənistan, eləcə də digər bölgə xalqlarına, o cümlədən Orta Asiyadakı türkdilli ölkələrə böyük töhfə verəcək, sülh və bərəkət gətirəcək. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin bu addımının olduqca vacib və dəyərli olduğunu xüsusi vurğulamaq, prosesi bu çərçivədən dəyərləndirmək vacibdir. Qarşıdakı dövrdə bölgəmizdə rifahın olduqca təsirli şəkildə yayılacağını görəcəyik. Bunun üçün imza atanların adları isə tarixə qızıl hərflərlə yazılacaq".

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Cənubi Qafqazda sülh Rusiyanı qane etmir

**Azərbaycanın liderliyi və səyləri ilə Cənubi Qafqzda irəlilədilən normallaşma prosesi sürətlə məntiqi sonluğuna, yəni sülh müqaviləsinin imzalanmasına doğru yaxınlaşır. Əbu-Dabidə Ermənistan və Azərbaycan liderlərinin ikitərəfli görüşündən sonra Vaşinqtonda keçirilən tarixi sülh sammiti nəhayət bölgədə dayanıqlı barışın əldə olunacağına dair hər kəsdə böyük əminlik yaradır. Avqustun 8-də Ağ Evdə Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu. Belə ki, Prezident Donald Trampın iştirakı ilə Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton sülh sammitində bir çox tarixi nailiyyətlər əldə edildi. Traixi sammit zamanı razılaşmalar əldə edilməsi, Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamə imzalanması ümumilikdə Cənubi Qafqazda sülh və sabitliyin təmini istiqamətində vacib mərhələ oldu.**



### Məqsədyönlü hücumlar

Regionla bağlı əldə olunan bütün bu tarixi nailiyyətlərin fonunda isə Şimal qonşumuz Rusiyanın Azərbaycana qarşı qərəzli siyasəti qabarıq şəkildə diqqət çəkməyə başlayıb. Nə təsadüfdür ki, Vaşinqtondakı tarixi sülh sammiti dönəmində Rusiya Azərbaycan neftinin də ixrac edildiyi Ukraynanın Odessa istiqamətində qaz kəməri sistemini, SOCAR-ın yanacaqdoldurma məntəqəsini növbəti dəfə hədəfə aldı və zərbələrə məruz qoydu. Bununla Rusiya Azərbaycana qarşı düşmənçiliyini açıq şəkildə ortaya qoydu.

Yeri gəlmişkən bildirək ki, avqustun 10-da Ukrayna Prezidenti Volodimir Zelenski Prezident İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Ukrayna Prezidenti dövlətimizin başçısını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik edib və bu görüşün tarixi xarakter daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaların, xüsusilə ABŞ Prezidentinin şahidliyi ilə iki ölkə arasında imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunmasına və çiçəklənməyə xidmət göstərəcəyini qeyd edib.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

Qeyd edək ki, bundan əvvəl də Rusiya Azərbaycanın Ukraynadakı səfirliyi istiqamətində raket zərbəsi endirmiş, daha sonra SOCAR-ın ofisinin yanına raket düşmüşdü. Bunlar Rusiyanın məqsədyönlü şəkildə Azərbaycanın Ukraynadakı fəaliyyətinə zərbə vurmaq və ölkəmizə qarşı düşmənçiliyini isbat edən faktlardır.

Prezident İlham Əliyevin Volodimir Zelenski ilə telefon danışığı zamanı da vurğuladığı kimi, iki ölkə arasında istər enerji, istərsə də digər sahələr olsun, əməkdaşlığına maneə törədə bilməz. Onu da vurğulamaq yerinə düşər ki, Azərbaycan Ukraynada yaranmış vəziyyətlə bağlı bu ölkəyə mütəmadi humanitar yardımlar edir. Avqustun 11-də Prezidentin imzaladığı Sərəncama əsasən Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılacaq.

Sərəncama əsasən, Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycanda istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Energetika Nazirliyinə 2 milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılacaq.

### Qərəz silsiləsi

Ümumiyyətlə, ərazi bütövlüyünü və suverenliyini təmin edərək bölgədə yeni reallıqlar yaradan Azərbaycan üçüncü qüvvələrin Cənubi Qafqazda ayırıcı xətlər yaratmaq, buranı daimi münaqişə, müharibə zonası olaraq saxlamaq kimi çirkin planlarını da suya salıb. İmperiya təfəkkürü ilə siyasət yürüdən Rusiyanın sərgilədiyi düşmən davranışlar da buna görədir.

Azərbaycanın müstəqil siyasət yürütməsinə hec cür qəbullana bilməyən Moskva əlində olan bütün rıçaqları işə salaraq ölkəmizə hücuma keçib. Hava məkanında təyyarəmizin vurulmasından tutmuş, Yekaterinburqda həmvətənlərimizə qarşı həyata keçirilən vandal davranışlara, absurd iddialarla ölkəmizə media savaşının açılmasına qədər bütün bu sadalanan mənfur fəaliyyətləri ilə Rusiya Azərbaycanın timsalında strateji müttəfiqini də itirmiş olur.

Sərnişin təyyarəmizi Qroznı üzərində vuran Rusiyadan Azərbaycanın qətiyyətlə cavab tələb etməsi, ölkədəki güc strukturlarının burada yaşayan həmvətənlərimizə qarşı vandal davranışlarının hesabını sorması Moskvanı özündən çıxarıb. Rusiyanın Əməkdar mədəniyyət işçisi və tanınmış jurnalisti Mixail Qusmanın TASS-ın baş direktorunun birinci müavini vəzifəsindən azad edilməsi də Rusiyanın anti-Azərbaycan kampaniyasının növbəti təzahürü idi. Qərəzli qərarın verilməsinə Mixail Qusmanın Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunda iştirak etməsi və Prezident İlham Əliyevə ünvanladığı sual olub. O, dövlətimizin başçısından Prezident olaraq uğurlu xarici diplomatiyası, çoxvektorlu siyasəti, sözünə sadiq liderliyinin nədən qaynaqlandığını soruşmuş və bunun bir neçə təməl prinsiplərini sadalamasını xahiş etmişdi.

Rusiya sülhməramlı kontingenti tərəfindən qeyri-qanuni şəkildə Xankəndidə quraşdırılan rəssam İvan Ayvazovskinin büstünün demontaj olunması ətrafında Moskvanın süni ajiotaj yaratması da sırf təxribat məqsədi güdüb.

Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy Azərbaycan tərəfinin bu addımının dərin təəssüflə qarşılandığını, bunun Rusiyaya qarşı xoşagəlməz və qeyri-dost addım kimi qiymətləndirildiyini bildirmişdi. Bununla yanaşı, Rusiyanın dövlət xəbər agentliyi olan TASS məsələ ilə bağlı dərc edilmiş "informasiya"da Azərbaycanın Xankəndi şəhərini "Stepanakert" adlandırmışdı. Agentlik təxribat xarakterli səhvini yalnız Azərbaycan Xarici İşlər Nazirliyinin sərt tələbindən sonra, o da iki cəhddən sonra düzəltmişdi. Rusiya Azərbaycana qarşı növbəti media hücumunu "Moskovskiy komsomolets" qəzeti üzərindən etmişdi. Sözügedən nəşrdə yayımlanan qərəzli məqalədə hüquqi ərazilərimizdə sökülmüş qanunsuz heykəl bəhanə gətirilərək Azərbaycan nasist Almaniyası ilə müqayisə edilmişdi. Bu, Moskvanın növbəti üzsüzlüyü idi. Çünki alman nasizminin məğlubiyyətə uğradılmasında Azərbaycanın misilsiz töhfələri olduğunu ən yaxşı Rusiya bilir. Bir müddət əvvəl Rusiya dövlət televiziyası da anti-Azərbaycan kampaniyasına qoşulmuşdu. Burada yayımlanan materiallarda Qarabağdan köçən erməniəsilli şəxslərin guya məcburi şəkildə bu ərazidən çıxarılmalarından bəhs edilirdi.

Azərbaycan neftinin də ixrac edildiyi Ukraynanın Odessa istiqamətində qaz kəməri sisteminin, SOCAR-ın yanacaqdoldurma məntəqəsinin növbəti dəfə hədəfə alınması da qərəz silsiləsinin və düşmənçiliyin davamıdır.

Əslində qardaş Ukrayna xalqına qarşı vəhşiliklər törədən Rusiyanın digər ölkələrə və xalqlara qarşı törətdikləri o qədər təəccüblü görünmür.

Postsovet məkanında Ermənistandan sonra ikinci işğalçı dövlət olan Rusiya bu cür rəzil siyasətlə heç nə əldə etmir, əksinə itirir. Misal üçün indiyə qədər Rusiyanın təsir vasitəsi hesab etdiyi MDB artıq dağılır. Moldova bu qurumu tərk edib, Azərbaycan onun tədbirlərinə qatılmır.

Bir sözlə, Rusiyanın ölkəmizi hədəf alan qərəzli siyasəti iflasa məhkumdur. Azərbaycan milli maraqlarına təhdid olan və yerləşdiyi ərazidə sülhü hədəf alan, istənilən gücə qarşı qətiyyətli cavab verməyə qadir qüdrətli ölkədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində doğmaları öldürülmüş, yaralanmış, mina qurbanı olmuş, əsirlikdə və girovluqda işgəncələrə məruz qalmış şəxslər məhkəmədə ifadə veriblər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 11-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Rəsul Süleymanlının hüquqi varisi - anası Günel Süleymanova ifadəsində oğlunun 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində şəhid olduğunu söyləyib.

Zərərçəkmiş şəxs Həsən Əkbərovun hüquqi varisi - anası Sənubər Əkbərova ifadəsində oğlunun 2020-ci ildə Vətən müharibəsində şəhid olduğunu bildirib.

Zərərçəkmiş şəxs Aybəniz Orucova ifadə verərək, 1992-ci ildə Xocalı soyqırımından iki gün sonra əkiz oğlanları da daxil olmaqla bütün ailə üzvləri ilə birlikdə girov götürüldüyünü deyib.

A.Orucova Xocalıya hücum zamanı meşəyə qaçdıqlarını, iki gün orada qaldıqdan sonra girov götürüldüklərini söyləyib. Qardaşı da daxil olmaqla doğmaları qətlə yetirilib.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs 7 gün Xankəndidə saxlanıldığını deyib. Martın 20-də özü, əkiz oğlanları isə martın 30-da girovluqdan azad edilib. "Girovluqda çox işgəncələr görmüşəm. Bıçağı götürüb əkiz uşaqlarımın boğazına söykəyib hədələdilər ki, başlarını kəsirik. Mənə bu cür iztirab verirdilər", - deyə zərərçəkmiş şəxs bildirib.

Aqil Əhmədov ifadəsində 1997-ci ilin aprel ayında Horadiz istiqamətində Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində ağır yaralanaraq əsir götürüldüyünü bildirib. Əsirlikdə həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Xankəndi şəhərində saxlanılıb. A.Əhmədov barəsində qondarma məhkəmə qurularaq barəsində ölüm "hökm"ü çıxarılıb. O, Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında deyib ki, 1 il 11 aydan sonra Azərbaycan tərəfə qaytarılıb. Orada Norik, Aram, Aşot adlı nəzarətçilər və digərləri tərəfindən döyülüb, işgəncələrə məruz qalıb. Əsirlik zamanı tibb sahəsi üzrə təhsil alan tələbələrə iynə vurmaq və digər tibbi prosedurlar onun üzərində öyrədilib.

Zərərçəkmiş şəxs Hafizə Səfərova ifadəsində 1991-ci il dekabrın 7-də yaşadığı Füzuli rayonunun Divanalılar kəndinə hücum zamanı özünün və doğmalarının girov götürüldüyünü söyləyib. Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran zərərçəkmiş şəxs deyib ki, girovluq zamanı soyuq yerdə saxlanılıb, özü və digər girovlar pis rəftara məruz qalıb. Girovluqda saxlanılan zaman atası Kərim Səfərov işgəncələr verilməklə qətlə yetirilib. H.Səfərova yeddi gündən sonra girovluqdan azad olunub.

Zərərçəkmiş şəxs Oruc Cabbarovun hüquqi varisi - anası Ülviyyə Cabbarova ifadəsində övladının Vətən müharibəsində şəhid olduğunu bildirib. O deyib ki, Ermənistan silahlı qüvvələri övladının nəşini üç ay sonra təhvil verib.

Səidə Cəfərova 1992-ci ildə Xocalıda soyqırımı zamanı Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində güllə yarası aldığını bildirib. Zərərçəkmiş şəxs soyqırımı zamanı düşmənin qocaları, uşaqları, qadınları kütləvi şəkildə qətlə yetirdiyini söyləyib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında bildirib ki, yaralı vəziyyətdə sürünərək Ağdamın Şelli kəndinə gəlməsi nəticəsində xilas olub.

Kənan Vahidli, Özal İsmayılov, Rəvan Məmmədov ifadələrində 2020-ci ildə Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Sunay Adıgözəlov ifadəsində 2023-cü il oktyabrın 5-də Füzuli rayonunun Alxanlı kəndində Ermənistan silahlı qüvvələrinin basdırdığı minanın partlaması nəticəsində yaralandığını söyləyib.

Asəf Xudiyev ifadəsində 2020-ci il noyabrın 14-də ANAMA əməkdaşı qismində minatəmizləmə fəaliyyəti ilə məşğul olarkən Füzuli rayonunun Alxanlı kəndində mina partlaması nəticəsində xəsarət aldığını deyib. Sonradan həmin minanın Ermənistanda istehsal edildiyi məlum olub.

Emin Baxşəliyev 2020-ci ildə Vətən müharibəsi zamanı, oktyabrın 1-də Suqovuşan istiqamətində yaralanması nəticəsində 4 gündən sonra Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürüldüyünü bildirib. Əlləri məftillə bağlanılıb, döyülüb. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, əsirlik zamanı həmin vaxt işğal altında olan Xankəndidə, Şuşada və Ermənistanın paytaxtı İrəvanda saxlanılıb. Saxlanıldığı yerlərin hamısında döyülüb, işgəncələrə məruz qalıb, bədəninə elektrik cərəyanı verilib. 2020-ci il dekabrın 14-də Azərbaycana qaytarılıb.

E.Baxşəliyev təqsirləndirilən şəxs Davit İşxanyanın suallarına cavabında müalicəsinin hələ də davam etdiyini deyib.

Nurəddin Yolçuyev ifadəsində Vətən müharibəsi zamanı, oktyabrın 1-də Suqovuşan istiqamətində yaralandığını, oktyabrın 2-də əsir götürüldüyünü söyləyib. O döyülüb, sonra Xankəndi şəhərinə aparılıb. Orada anesteziyasız, dəhşətli ağrılarla əməliyyat olunub. Sonra İrəvana aparılıb. Yenə döyülüb, işgəncələrə məruz qalıb. 2020-ci il dekabrın 14-də Azərbaycana qaytarılıb.

Seymur Əhmədov, Rafail Zülfüqarov, Mətləb Allahverdiyev ifadələrində müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüklərini bildiriblər. Onların hamısı döyülüb, işgəncələrə məruz qalıb. M.Allahverdiyevin ağzındakı qızıl dişləri zorla çıxarılıb.

Mübariz Məmmədov 1992-ci il sentyabrın 1-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığında yaralanması nəticəsində əsir götürüldüyünü bildirib. O, dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında bildirib ki, əvvəlcə Edilli kəndində, sonra isə İrəvan şəhərində saxlanılıb. Əsirlik zamanı avtomatın qundağı ilə, rezin dəyənəklə, yumruq-təpiklə döyülüb, işgəncələrə məruz qalıb. 1995-ci il mayın 12-də Azərbaycana qaytarılıb.

Xəyal Abdullayev ifadəsində 2022-ci il mayın 28-də Füzuli rayonunun işğaldan azad olunmuş hissəsində mal-qara otararkən minaya düşdüyünü deyib.

Vüqar Mehdiyev ifadəsində 1993-cü il oktyabrın 23-də Füzuli rayonunda girov götürüldüyünü bildirib. Həmin il dekabrın 18-də girovluqdan qaçıb.

Elşən Xəlilov ifadəsində 2021-ci il iyulun 12-də Füzuli rayonunda şirkətin sürücüsü qismində çalışarkən Ermənistan silahlı qüvvələrinin vaxtilə atdığı sursatın partlaması nəticəsində xəsarət aldığını söyləyib.

Bəxtiyar Tağıyev 1992-ci il dekabrın 8-dən 9-na keçən gecə Zəngilanda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. Əsirlikdə olarkən döyülüb, işgəncələrə məruz qalıb. 1 il 1 ay 10 gün saxlanıldıqdan sonra Azərbaycana təhvil verilib.

Əli Talıbov ifadəsində 1996-cı ildə Naxçıvanda hərbi xidmətdə olarkən Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü söyləyib. Bir ay 18 gündən sonra Azərbaycana qaytarılıb. Əsirlik zamanı burnu sındırılıb, dəfələrlə huşu itənədək döyülüb.

Dağlar Teymurov ifadəsində 2016-cı ildə Aprel döyüşləri və 2020-ci ildə Vətən müharibəsi zamanı xəsarət aldığını söyləyib.

Namət Məmmədov ifadəsində 1994-cü ildə Haramı düzündə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü, işgəncələrə məruz qaldığını, 460 gündən sonra buraxıldığını deyib.

Cavanşir Hacıyev 2021-ci il aprelin 5-də Qubadlı rayonunda minaya düşərək xəsarət aldığını söyləyib.

Alışan Səfərov 2022-ci il fevralın 18-də Tərtərdə yolda mina partlaması nəticəsində xəsarətlər aldığını deyib.

Tərtər rayon sakinləri - Yadigar Səfərov, Müşfiq Qurbanov və Xasay İbrahimov Ermənistan silahlı qüvvələrinin müxtəlif vaxtlarda artilleriya zərbələri endirmələri nəticəsində yaşadıqları evlərinin yararsız vəziyyətə düşdüyünü söyləyiblər.

Ramiz Hüseynov 1993-cü ildə Cəbrayılda mina partlaması nəticəsində yaralandığını deyib.

İlqar Nəcəfov Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonuna hücum etməsi nəticəsində 1993-cü il aprelin 2-də yaşadığı torpaqlardan məcburi köçkün düşdüyünü deyib.

Rəhman Hüseynov ifadəsində 1993-cü ildə Cəbrayıl rayonunun Daşkəsən kəndindən məcburi köçkün düşdüyünü bildirib. Həmin vaxt atası itkin düşüb.

Zərərçəkmiş şəxslər - İsmayıl Abbasov, Nəbi Əzimov, Almara Qurbanova, Vaqif Çıraqov, Sevda Məmişova, Xalıqverdi Nəsibov, Nahid Hüseynov, Faiq Abbasov, Elşən Mirzəyev, Əlövsət Musayev ifadələrində Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində yaşadıqları ərazilərdən (Şuşa, Ağdərə, Kəlbəcər) məcburi köçkün düşdüklərini söyləyiblər.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən Arayik Harutyunyanın, David Manukyanın, David Babayanın, Davit İşxanyanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 14-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Əsas kapitala 9,9 milyard manatdan çox investisiya yönəldilib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-iyul aylarında əsas kapitala 9 milyard 911,8 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,4 faiz çox investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 18,4 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 15,0 faiz artmışdır. İstifadə olunmuş investisiyanın 5046,1 milyon manatı və ya 50,9 faizi məhsul istehsalı sahələrinə, 3335,2 milyon manatı (33,7 faizi) xidmət sahələrinə, 1530,5 milyon manatı (15,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 7598,7 milyon manatını və ya 76,7 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 7822,3 milyon manatı və ya 78,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Qeyri-neft-qaz sektorunda sənaye məhsulları istehsalı 5,5 faiz artıb

**Cari ilin yanvar-iyul aylarında ölkə üzrə 36,6 milyard manatlıq sənaye məhsulu istehsal edilmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 3,5 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 5,5 faiz artmışdır.**

Sənaye məhsullarının 61,5 faizi mədənçıxarma, 32,0 faizi emal, 5,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik qaz hasilatı 0,2 faiz armış, əmtəəlik neft hasilatı 5,4 faiz azalmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 88,2, əczaçılıq məhsullarının istehsalı 81,3, toxuculuq sənayesi məhsullarının istehsalı 27,5, kimya sənayesi məhsullarının istehsalı 10,7, qida məhsullarının istehsalı 10,6, maşın və avadanlıqların istehsalı 10,6 faiz, tütün məmulatlarının istehsalı 8,1, rezin və plastik kütlə məmulatlarının istehsalı 5,3, neft məhsullarının istehsalı 1,4 faiz artmışdır.

Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında qeydə alınmışdır.

## 7 ayda 265,6 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi bu ilin 7 ayında 265,6 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 93 min şəxs münasib işlərlə təmin olunub, 12,2 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Yanvar-iyul aylarında 8,4 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 152 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

# 14 ölkə son deyil

## Azərbaycandan qaz idxal etmək üçün yeni müraciətlər var

**Son bir ayadək Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayı 12 idi. Bunlar Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır. Qısa müddətdə bu sıraya daha iki ölkə - Ukrayna və Suriya da qoşuldu. İndi Azərbaycanın qazla təchiz etdiyi ölkələrin sayı 14-dür.**



Azərbaycan qazı Ukraynaya keçən ayın sonundan çatıb. Bununla bağlı məlumatı "Naftogaz" Şirkətlər Qrupu yayıb. Şirkətdən bildirilib ki, ilk dəfə olaraq Azərbaycan qazının Bolqarıstan-Rumıniya-Ukrayna dəhlizi üzərindən Trans-Balkan marşrutu ilə sınaq tədarükü həyata keçirilir.

"Naftogaz" İdarə Heyətinin sədri Sergey Koretski sosial media hesabında yazıb: "Bu, miqyasına görə kiçik, lakin strateji əhəmiyyətli addımdır və uzunmüddətli əməkdaşlığa yol açır". O qeyd edib ki, Azərbaycandan qaz almaq ölkənin təchizatını şaxələndirəcək və enerji təhlükəsizliyini gücləndirəcək.

Azərbaycan qazının Ukraynaya tədarükü geosiyasi və iqtisadi baxımdan nə qədər əhəmiyyətlidir? Ekspertlərin fikrincə, ümumiyyətlə, Azərbaycan qazının ixrac coğrafiyasının genişlənməsinin siyasi-iqtisadi əhəmiyyəti böyükdür. Artıq ölkəmizdən qazın Avropaya çatdırılması və oradan da geriyə dönərək Ukraynaya daxil olması prosesi başlayıb. Doğrudur, bu, əvvəlcədən müəyyən edilmiş həcmdə qazın bölgüsü çərçivəsində baş verir. Lakin hər bir halda Azərbaycanın qaz ixrac coğrafiyasının genişlənməsi və xüsusilə Ukrayna istiqamətində yeni bir mərhələnin başlanması mühüm əhəmiyyət daşıyır.

Bu layihə həm də siyasi baxımdan ciddi bir yenilikdir. Çünki uzun illər ərzində qaz əsasən Rusiya ərazisindən Ukraynaya nəql olunurdu. İndi isə bu tarixi model dəyişir və Azərbaycanın qazı yeni bir marşrut üzrə Ukraynaya çatdırılır. Bu, Avropanın qaz təchizatı xəritəsində baş verən fundamental dəyişikliyin göstəricisidir.

İndi artıq Suriya da Azərbaycan qazı alır. Hazırda Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verən ölkəmiz bu layihə ilə enerji ixracı coğrafiyasını Yaxın Şərqə doğru genişləndirir. Avqustun 2-də Türkiyənin Kilis şəhərində Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı tədbir keçirildi.

Xatırladaq ki, Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracına bu il aprelin 11-də Antalyada və iyulun 12-də Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa arasında keçirilən görüşlərdə əldə edilmiş razılaşmalar əsasında, qısa müddət ərzində start verilib. Əhməd Əl Şaraanın ölkəmizə işgüzar səfəri çərçivəsində iyulun 12-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu da imzalanmışdı. Sənədi Azərbaycanın iqtisadiyyat naziri, SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalamışdılar.

Suriyaya qaz Kilis şəhərindəki "Yavuzlu Ölçmə Stansiyası"ndan ötürülür. Azərbaycan qazını bu ölkəyə nəql edən boruların günlük potensialı 6 milyon kubmetrdir. Sadəcə, hələlik 3,4 milyon kubmetr qazın nəqli nəzərdə tutulur.

İlkin mərhələdə Suriyaya ildə 2 milyard kubmetrə qədər təbii qaz ixracı mümkün olacaq. Həmin təbii qaz vasitəsilə təqribən 1200 meqavatlıq quraşdırılmış güc aktivləşəcək. Bu layihə Suriyada həyatın normallaşmasına çox ciddi töhfə verəcək, insanların həyat səviyyəsini yüksəldəcək və ölkəyə geri qayıdış prosesini sürətləndirəcək.

Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir jurnalistlərə açıqlamasında bu barədə belə deyib: "Azərbaycanlı qardaşlarımıza bu dəstəyə görə təşəkkür edirəm. Təbii ki, bu razılaşma hər iki ölkə başçısının sonuncu görüşündən sonra baş tutub. Bu, birbaşa Suriya xalqının rifahına və elektrik enerjisi ilə davamlı təminatına xidmət göstərəcək. Bu layihə sonuncu deyil, ilk layihədir. Bundan sonra da bizim birgə layihələrimiz olacaq. Azərbaycanın iqtisadiyyat naziri, qardaşım Mikayıl Cabbarov ilə də bir az öncə görüləcək işlərlə bağlı müzakirələr apardıq. Texniki qrupların qarşılıqlı şəkildə səfərləri təşkil olunacaq. Azərbaycanın Suriyada investisiya ilə bağlı proqram və layihələrini müzakirə etdik".

SOCAR ilə birlikdə Azərbaycan qazının Türkiyə-Suriya sərhədində təhvil verilməsini nəzərdə tutan SVOP (mübadilə) razılaşmasının imzalandığını bildirən Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar kədərli və sevincli günlərdə daim Türkiyənin yanında olan Azərbaycanın bu layihədə də dəstəyini əsirgəmədiyini vurğulayıb.

Gələn ildən Albaniyanın da Azərbaycandan qaz alması nəzərdə tutulur. Bu il mayın 16-da Tiranada "Avropa Siyasi Birliyi"nin VI Zirvə toplantısında Azərbaycan Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə görüşündə ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin geniş potensiala malik olduğu qeyd edilmişdir. Eyni zamanda vurğulanmışdır ki, əməkdaşlığın əsas meyarı kimi enerji sektoru qalmaqdadır.

Azərbaycan-Albaniya enerji əməkdaşlığı təkcə bu iki ölkə üçün deyil, bir sıra digər ölkələr üçün, eləcə də TAP (Trans-Adriatik Qaz Boru Kəməri) üçün də əhəmiyyətlidir. Belə ki, Azərbaycan qazını Avropaya çatdıran 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti TAP-ın 210 kilometri Albaniyanın ərazisindən keçir. Qeyd edək ki, TAP-ın uzunluğu 878 kilometrdir. Bu kəmərin qalan hissəsinin 550 kilometri Yunanıstanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından çəkilib. Bir neçə kilometrlik kiçik hissəsi isə İtaliyada quru sahəyə çıxaraq kəməri bu ölkənin qaz şəbəkəsinə birləşdirir.

Ölkəmizin Albaniyanın qaz infrastrukturunun qurulmasına dəstək verəcəyi nəzərdə tutulur. Bu barədə Albaniyanın infrastruktur və energetika nazirinin müavini Seno Klosi belə deyib: "Albaniya dinamik inkişaf edən enerji sektoruna malik bir ölkə olsa da, qaz sahəsində geri qalır". O bildirib ki, bu problemin həll olunmasına Azərbaycanla əməkdaşlıq kömək edəcək.

Qeyd etdiyimiz kimi, Albaniya gələn il TAP vasitəsilə ölkəmizdən qaz idxalına başlamağa da hazırlaşır. S.Klosi bunu da bildirərək deyib: "Albaniya ilk dəfə TAP boru kəməri ilə qaz alacaq. Qaz kəməri artıq Albaniya ərazisindən keçir və İtaliyaya gedir, lakin gələcəkdə şimala doğru bir qolun çəkilməsi layihəsi müzakirə oluna bilər. Hələlik o, baxılma mərhələsindədir".

Beləliklə, Azərbaycan qazının alıcısı olan ölkələrin sayı getdikcə artır. Artıq yeni müraciətlər də var, bu istiqamətdə növbəti danışıqlar aparılır. Bu il iyulun 21-də Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev bunu bir daha qeyd etmişdir: "Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Zəngəzur dəhlizi - TRIPP bölgəmizə sərmayə, inkişaf və sabitlik gətirəcək

**Hazırda beynəlxalq səviyyədə gedən ciddi geosiyasi proseslərin başlıca hədəfi yeni dünya düzəninin qurulmasıdır. Azərbaycan da istisna olmamaqla hər bir dövlət bu prosesdə yerini müəyyənləşdirmək istəyir.**

Prezident İlham Əliyevin avqustun 8-də ABŞ lideri Donald Trampla keçirdiyi görüş, Azərbaycanla Ermənistan arasında aparılan danışıqlar, iki ölkənin xarici işlər nazirlərinin "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsini paraflaması ölkəmizin hansı blokda yer aldığını dünyaya nümayiş etdirdi.

Azərbaycan torpaqları işğal altında olduğu dövrdə keçmiş "Dağlıq Qarabağ" problemini sülh və beynəlxalq hüquq çərçivəsində həll etməyə çox vaxt və səy göstərdi. 30 illik danışıqlar heç bir nəticə verməyəndə isə hər kəsə bəlli oldu ki, ATƏT-in Minsk qrupu vaxt uzatmaqla işğal faktını bizə qəbul etdirmək istəyir. Belə olan halda Azərbaycan Prezidenti İlham Əliyev BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, torpaqlarımızın hərbi yolla azad edilməsi barədə qərar verdi. 44 günlük tarixi Zəfərlə və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı ilə Azərbaycan öz ərazisində suverenliyini tam bərpa etdi.

Adətən müharibə bitdikdən sonra sülh təklifi ilə məğlub ölkə müraciət edir. Lakin bunun əvəzinə Ermənistan tərəfindən müxtəlif revanşist bəyanatlar səsləndirildi. Azərbaycan bu dəfə də bütün dünyaya bəyan etdi ki, Ermənistana sülh təklifi göndərib. Ötən 5 ildə ölkəmiz bütün siyasi-diplomatik, həmçinin müxtəlif platformalardan istifadə edərək məsələnin həllinə çalışdı. Buna baxmayaraq, sülh müqaviləsini imzalamaq mümkün olmurdu. Səbəb regionumuzun iki böyük ölkəsi olan Rusiya və İranın qeyri-konstruktiv yol tutması idi. Məsələn, məlumdur ki, 10 noyabr Bəyanatının 9-cu maddəsində Azərbaycanın əsas ərazisindən Ermənistanın Zəngəzur bölgəsi üzərindən Naxçıvana yolun açılması barədə razılıq əldə olunmuşdu və Rusiya bu yola öz sərhədçilərinin nəzarət etməsini istəyirdi. İran isə bu dəhlizin hər hansı bir formada açılmasının əleyhinə idi. Guya bu dəhliz açılarsa, onun milli maraqlarına təhdid yaranacaq, Ermənistanın ərazi bütövlüyü və sərhədləri dəyişəcək. Bir sözlə, İran "bu, bizim qırmızı xəttimizdir" deyib durmuşdu.

Nəhayət, Azərbaycanla Ermənistan arasında "Qordi düyünü"nə çevrilən Zəngəzur dəhlizinin açılması avqustun 8-də Amerikada baş tutdu. Prezident İlham Əliyev bununla bağlı mətbuata verdiyi bəyanatda demişdir: "Bu, həqiqətən, tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq.




Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq".

Amerikanın vasitəçiliyi ilə bu məsələnin həllində ciddi problem yaşanmadı. Səbəbi çox sadədir: ABŞ hər iki tərəfin milli maraqlarını nəzərə alan təkliflə çıxış etmiş, daha Azərbaycanla Ermənistana öz şəxsi maraqlarını diktə etməmişdi. Ona görə də təklif hər iki ölkə tərəfindən məmnuniyyətlə qəbul olundu. Bir də ki, ABŞ regionumuza top-tüfənglə deyil, investisiya ilə gəlir, bölgənin inkişafına töhfə vermək istəyir.

Donald Tramp mətbuata verdiyi bəyanatda ABŞ-nin məramı barədə demişdir: "Mənim üçün böyük şərəf doğuran məqam bu bəyanatda TRIPP, yəni "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu"nun öz əksini tapmasıdır. Bu xüsusi tranzit ərazi vasitəsilə Azərbaycan Ermənistanın suverenliyinə qəti şəkildə hörmət çərçivəsində özünün Naxçıvan bölgəsinə tam çıxışını əldə edəcək. Yəni bunun nəticəsində hər iki tərəf üçün xüsusi əhəmiyyət daşıyan bu ərazidə birgə əməkdaşlıq mümkün olacaq. Ermənistan ABŞ ilə birlikdə bu dəhlizin inkişafı ilə bağlı xüsusi tərəfdaşlıq yaradır. Bu tərəfdaşlıq 99 illik olacaq və bizə vəd verilib ki, bu müddət uzadıla bilər. Bəli, siz bizə söz verdiniz. Orada Amerika infrastruktur şirkətlərinin böyük layihələrlə məşğul olacağını gözləyirik. Onlar bu iki ölkədə çalışmağı arzulayır və bu işlərə böyük maliyyə vəsaiti ayıracaqlar. Bu, üç ölkəyə iqtisadi səmərə gətirəcək və vacib bir region üçün çox əhəmiyyətli xəbərdir".

TRIPP yolu ilə bağlı müqavilənin bağlanmasından ən çox məmnun qalan Ermənistan olmalıdır. ABŞ-nin zəmanəti ilə bu razılaşma qonşu ölkəyə Rusiya və İran təhdidlərindən və Fransanın siyasi təzyiqlərindən sığortalanmağa imkan verəcək. Donald Tramp havayı yerə deməmişdi: "Onlar müəyyən işlərə görə mənə zəng edə bilərlər". Bu, xüsusən Ermənistana xitabən edilən bir jest idi. Yəni Rusiya və İran sizə təzyiq göstərərsə, məni ara, lazımi tədbiri mən görəcəyəm.

Ermənistan baş nazirinin dəhlizlə bağlı sazişdən dolayı sevincini bütün dünya gördü. Çünki bu razılaşma ilə Ermənistan dalan ölkə olmaqdan xilas olur, dünyaya açılır, üstəlik, Orta dəhliz kimi qlobal marşrutda tranzit ölkəyə çevrilir. Digər tərəfdən, Rusiya və İranın təzyiqlərindən yaxa qurtara biləcək. Çünki bu işin arxasında dünyanın supergücü olan ABŞ durur. Elə bu səbəbdən Nikol Paşinyan dəhlizin açılması üçün D.Trampa təşəkkür edərək demişdir: "TRIPP yolu uzunmüddətli fayda gətirəcək strateji iqtisadi imkanlar açacaq. Onun sayəsində infrastruktura sərmayələr, daha geniş regional bağlantılar təşviq olunacaq, münaqişənin həllində carçı kimi tanınan ABŞ rəhbərliyi ilə əməkdaşlıq güclənəcək. Mən Ermənistan ilə Azərbaycan arasında vəziyyəti tam dəyişən nəticələrin əldə olunmasına görə Prezident Trampa və onun heyətinə təşəkkürümü bildirmək istəyirəm".

Prezident İlham Əliyev də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə verdiyi müsahibəsində Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı əldə olunan razılaşmanı əhəmiyyətli bir hadisə kimi dəyərləndirdi. Bunun baş tutmaması üçün müəyyən dairələrin qəsdən təxribat xarakterli bəyanatlar yaymasını da xüsusi vurğuladı. Prezident həmin təxribatların dövlət başçıları səviyyəsində olduğunu bildirərək dedi ki, bizi Ermənistanın ərazisini işğal etmək niyyətində olmaqda günahlandırmaq istəyirdilər. Halbuki ölkəmizin heç vaxt belə bir niyyəti olmayıb, əksinə, Azərbaycan sülh şəraitində Ermənistanla dəhliz məsələsində əməkdaşlıq etməyə çalışıb.

Zəngəzur dəhlizi (TRIPP) tək iki ölkə üçün fayda gətirməyəcək. Bu dəhlizin fəaliyyətə başlaması dünya ticarətində önəmli rol oynayan Orta dəhlizin yükdaşıma dövriyyəsini artıracaq, gələcəkdə dəhliz üzərindən Asiyadan Avropaya və geriyə yüklərin daşınmasında baş verə biləcək fasilələrin yaranmasının qarşısını alacaq. TRIPP Azərbaycanın dünya üçün tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq, ölkəmizə əlavə siyasi və iqtisadi dividendlər qazandıracaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ağdərə, Laçın, Xocalı rayonlarında daha 26 sakinə özünüməşğulluq proqramı üzrə aktivlər verilib

**İşğaldan azad olunmuş ərazilərimizin sakinləri üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatların qurulması işləri davam etdirilir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu dəfə Ağdərə, Laçın və Xocalı rayonlarına köçürülmüş sakinlərdən daha 26 şəxsi proqram çərçivəsində aktivlərlə təmin edib. Verilmiş aktivlər hesabına həmin sakinlər maldarlıq, keçiçilik, qoyunçuluq və arıçılıq zərfləri üzrə öz təsərrüfatlarını yaradıblar.

Proqram iştirakçıları doğma yurdlarında təsərrüfatlarını qurmaları üçün göstərilən dəstəkdən razı qaldıqlarını bildirib, dövlətimizin başçısına minnətdarlıqlarını ifadə ediblər. Onlar qurduqları bu təsərrüfatları daim genişləndirməyə çalışacaqlarını vurğulayıblar.



Beləliklə, Ağdərə, Laçın və Xocalı rayonlarına köçürülmüş sakinlərdən artıq 220 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulub.

## Ödənişli yolda yenilik tətbiq ediləcək

**Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli avtomobil yolunda istifadəçilərin rahatlığını təmin etmək məqsədilə daha bir yenilik tətbiq olunacaq. Yeni layihənin icrası sürücülərə yoldan istifadə zamanı nağd ödəniş etmək imkanı yaradacaq.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) 20 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı MMC-nin direktoru Mirqiyas Kazımov AZƏRTAC-a bildirib ki, hazırda avtomobil yolundan sürətli keçid kartları vasitəsilə (TEQ) və məntəqədə nağdsız ödəniş etməklə istifadə etmək mümkündür.

"Ödənişli avtomobil yolunda istifadəçilər üçün yaxın gələcəkdə daha bir yeniliyin tətbiqi nəzərdə tutulub. Bildiyiniz kimi, əvvəllər yoldan yalnız nağdsız ödəniş etməklə istifadə etmək mümkün idi. 2024-cü ilin sonlarından başlayaraq sürətli keçid kartı da tətbiq olundu. TEQ əldə edən sürücülərin əlavə vaxt itirmədən yola xüsusi zolaqlardan giriş imkanı var. Tətbiq olunacaq yeni layihə istifadəçilərin ödəniş imkanlarını artıracaq. Layihəyə əsasən, keçid zolaqlarında yeni terminallar quraşdırılacaq. Vətəndaş yola giriş zamanı avtomobildən düşmədən zolaqda quraşdırılmış terminala yaxınlaşaraq xüsusi kart əldə edəcək. Çıxış nöqtəsində isə həmin kartı yenidən terminala daxil etdikdə ödənişin məbləği görünəcək. Bundan sonra istifadəçiyə həm nağd, həm də nağdsız ödəniş etmək üçün seçim imkanı veriləcək. Nağd ödənişi seçən sürücü vəsaiti birbaşa terminala daxil etməklə yoldan istifadə haqqını ödəyə biləcək. Yeni layihə ilə bağlı AAYDA-nın rəhbərliyi ödənişli yolun başlanğıc nöqtəsi - Yaşma keçid məntəqəsində olub, layihənin qısa müddətdə icra edilərək fəaliyyətə başlaması ilə bağlı tapşırıq verilib", - deyə Mirqiyas Kazımov söyləyib.

Ödənişli yoldan sürətli keçid kartları (TEQ) vasitəsilə istifadə edənlər üçün də yenilik var. Bundan sonra kartların balansını "BirBank" mobil bank tətbiqi vasitəsilə də artırmaq olacaq.

"Sürətli keçid kartının balansını satış məntəqəsində və ya onlayn şəkildə www.odenisliyol.az rəsmi internet səhifəsinə daxil olmaqla artırmaq olar. Yaxın gələcəkdə isə "BirBank" bank tətbiqi vasitəsilə də TEQ balansını artırmaq olacaq. Vətəndaş tətbiqdə müvafiq ödəniş bölməsini seçərək, şəxsiyyət vəsiqəsinin



FİN kodunu və avtomobilinin nömrəsini əlavə etməklə TEQ balansına vəsait köçürə biləcək", - deyə M.Kazımov bildirib.

Sürətli keçid kartını almaq üçün vətəndaş şəxsiyyət vəsiqəsini və nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsini təqdim etməlidir. Kartın qiyməti 5,90 (ƏDV daxil) manatdır. Sürücülər kartları Yaşma, Giləzi, Siyəzən, Gəndov, Quba, SDK (Xudat) ödəniş-keçid məntəqələrindən əldə edə bilərlər. Bundan başqa, Bakı şəhəri üzrə 2, 5, 6, 7 saylı, Sumqayıt şəhəri 2 saylı və Quba "ASAN xidmət" mərkəzlərindən də sürətli keçid kartlarını almaq mümkündür. Kartları əldə etmək üçün cəmi bir neçə dəqiqə vaxt sərf olunur.

Sürətli keçid kartının istifadəsi zamanı yaranan çətinlik və ya kart zədələndiyi halda satış məntəqələrinə, yaxud da aidiyyəti ofislərə yaxınlaşmaq lazımdır.

Bundan başqa istifadəçilər onları maraqlandıran məsələlərlə bağlı *1009 nömrəli "Qaynar xətt"ə zəng etməklə, və ya "Whatsapp"da (+994) 50 286-42-29 nömrəsinə yazılı, səsli mesaj göndərərək müraciət edə bilərlər. Həmçinin www.odenisliyol.az rəsmi internet səhifəsi üzərindən və ya info@tollroad.az email ünvanına elektron məktubla müraciət etmək də mümkündür.

# "Niyyətin hara, mənzilin ora"

### Amma bunun üçün gərək məqsədyönlü olasan

**Atası Ələddin kişi onu molla görmək istəyirdi. Buna görə də qonşu kənddə yaşayan mollanın yanında təlim keçməyi məsləhət görüb. Qonşu kənddəki molla da etiraz etməyib. Lakin yeniyetmə Tofiq buna razı olmayıb. Orta məktəbdə təhsilini davam etdirməyə qərar verib. Ata oğlunun inadkarlığına qarşı çıxmayıb.**



Tofiq yuxarı siniflərdə oxuyarkən məktəbin dram dərnəyində fəal iştirak edib. Səməd Vurğunun "Vaqif" dramında oynadığı Eldar obrazının sözləri indinin özündə də yaddaşından silinməyib. Ümumiyyətlə, dram dərnəyində oynadığı rollar onun həyatını incəsənət, teatr aləminə bağlayıb. 1974-cü ildə Lənkəran rayon Avrora qəsəbə kənd orta məktəbini bitirəndən sonra sənədlərini Bakıdakı Kitabxanaçılıq Texnikumunun Mədəni-maarif şöbəsinə verib. Uğurlu imtahanlar və tələbə adı. Amma ovaxtkı qaydalara uyğun olaraq onu texnikumu bitirməmiş əsgərliyə aparıblar. Əsgərlikdən sonra - 1979-cu ildə təhsilini bitirib doğma Lənkərana qayıdıb. Rayon Mədəniyyət evində metodist kimi əmək fəaliyyətinə başlayıb.

Lakin bu sahədə ali təhsil almaq istəyi bir an da olsun onu tərk etmir. Bu istəklə 1980-ci ildə qiyabi yolla M.Əliyev adına Dövlət İncəsənət İnstitutuna daxil olur. Təhsil prosesində öyrəndikləri işində köməyinə çatır. Bacarığını, təşkilatçılığını görüb işlədiyi kollektivə rəhbər - Mədəniyyət evinin direktoru vəzifəsinə irəli çəkilir. Burada çalışdığı illərdə rayonda mədəni-kütləvi tədbirlərin hazırlanıb keçirilməsində əlindən gələni edir. Lakin hələ gənc yaşlarından teatra olan həvəsi də qalırdı. Atalar "niyyətin hara, mənzilin ora", - deyiblər. Sonrakı illərdə Lənkəran Dövlər Teatrında çalışır.

1986-cı ildə keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda kooperativ hərəkatı geniş vüsət almışdı. Bu da Tofiqin yaradıcılıq potensialının üzə çıxmasına şərait yaradır. O, işindən ayrılmadan 1989-cu ildə turizm şirkəti açır. 1990-2002-ci illər arasında Lənkəran şəhərinin mərkəzindəki "Xəzər" mehmanxanasını icarəyə götürür. Mehmanxanada işləyərkən özünün turizm obyekti olması barədə dönə-dönə götür-qoy edir. Bunun üçün külli miqdarda vəsait tələb olunduğunu bilsə də, inadından dönmür. Şəhər İcraiyyə Komitəsi sədrinin qəbulunda olub fikrini bildirir. Onu inandırmağa çalışırlar ki, belə bir işin öhdəsindən gəlmək çox çətindir. Lakin gənc Tofiq fikrindən dönmür. Sədr onu "Avrora" çayçılıq sovxozunun direktoru Səhhət Qasımovun yanına göndərir. Zabitəli, rəhbərlik etmək bacarığı ilə camaat arasında nüfuz sahibi olan S.Qasımov gənc Tofiqi danlayır: "Ora-bura niyə düşmüsən?! Mən sənin atanı yaxşı tanıyıram. Gərək əvvəldən bura gələydin".

Nə isə. Tofiq Heydərov üçün sənədləşmə aparılır. Sakini olduğu "Avrora" çayçılıq sovxozunun ərazisindən qanuni şəkildə torpaq sahəsi ayrılır. Artıq tikinti işlərinə başlamaq olardı. Əlində tutarlı vəsaiti olmasa da, işə başlayır. Özü bu barədə belə deyir: "Hər gün Lənkəranın hər yerini gəzib ucuz inşaat materialları axtarırdım. Düzünü deyəcəyəm, bu işə baş qoşduğum üçün bəzən özüm-özümü danlayırdım. Lakin qəlbimdə bir inam, düşüncəmdə bir ümid də var idi. Çətinliklə başa çatan hər bir işin nəticəsi sevindirici olur. İlk olaraq yeməkxananın damını örtüb başa çatdırdığım gün sakit bir guşəyə çəkilib kövrəldim. Gördüyünüz 10 koteci, digər tikililəri sonradan ərsəyə gətirmişəm. Bu işlərdə mənə maddi və mənəvi dəstəyi olan qardaşım Sadiqin yaxşılığını heç vaxt unuda bilmərəm. Sahibkarlığın İnkişafı Fondu da aşağı faizlə mənə kreditlər verib. Sevinirəm ki, nəsə bir iş görmüşəm. Xanbulan İstirahət Mərkəzinin bu gün ölkənin turizm xəritəsində yeri var. Hər il burada yüzlərlə insan dincəlir. Son illər Həmkarlar İttifaqları Konfederasiyasının xətti ilə müəssisəmizə turistlər gəlirlər. Çalışırıq, onlara nümunəvi xidmət göstərək. Bizdən, Lənkərandan razı getsinlər. Cari ilin 6 ayı ərzində Xanbulan İstirahət Mərkəzində 600-dən çox turist istirahət edib. Onların sırasında xarici ölkələrdən - Nepaldan, Hindistandan, Türkiyədən, Avropadan qonaqlarımız olub. Turistlər burada dincəlməklə yanaşı, Lənkəranın, Astaranın, Lerikin tarixi abidələrinə, mənzərəli yerlərinə ekskursiya edirlər. Onlara gün ərzində 3 dəfə əsasən təmiz kənd məhsullarından hazırlanan yeməklər veririk".

Tofiq müəllimin dəvəti ilə bu günlər birgünlük qonağı olduq. Lənkəran-Astara magistral yolunun kənarında - Hirkan Milli Parkı ilə həmsərhəd ərazidə yerləşən Xanbulançaydan çəkilən beton kanalla Astaraya dupduru su axıb gedir. Bu yerin mənzərəsini seyr etməkdən doymaq olmur.

Axşamüstü Tofiq müəllimin maşını ilə qıvrıla-qıvrıla Astaranın yüksək dağlıq ərazilərinə qalxan rahat asfalt yolla irəliləyirik. Təxminən 15 kilometr getdikdən sonra Hirkan meşələri ilə örtülmüş dağlarda duman-çiskin görünür. Fikirləşirəm ki, Azərbaycanımızın ərazisi çox böyük olmasa da, təbiəti nə qədər zənginmiş, Aşağıda bürküdən dayanmaq mümkün deyildisə, burada sərin hava, duman-çiskin var.

T.Heydərov avtomobili yolun kənarındakı çayxananın yanında saxlayır. Özü ilə gətirdiyi quru çayı çayçıya verir: "Qonağımla yanına sərinlənməyə, bir də ki samovar çayı içməyə gəlmişik". Çayxanada kimi nərd oynayır, kimi də satdığı balın keyfiyyətini tərifləyirdi. Burada dincəldikdən, belə demək mümkündürsə, doyunca sərinlənəndən sonra geri qayıdırıq.

Tofiq Heydərov Lənkəranın teatr tarixində izi olan mədəniyyət işçisidir. 2014- 2022-ci illərdə Lənkəran Dövlət Dram Teatrının direktoru olub. İşlədiyi müddətdə teatrda sanballı əsərlər səhnələşdirilib, repertuar zənginləşib. O illər Lənkəran teatrı Türkiyədə, Qazaxıstanda, İranda və digər ölkələrdə keçirilən beynəlxalq teatr forumu və festivallarda Azərbaycanı, o cümlədən Lənkəranı təmsil edib.

O, bu gün də gənclər arasındadır. Lənkəran Dövlət Universitetində baş müəllim kimi turizm, mədəniyyət və incəsənət fənlərini tədris edir. Deyir ki, bu iki iş bir-birinə mane olmur, əksinə, bir-birini tamamlayır. Yəqin buna görədir ki, Tofiq Heydərov həm turizm sektorunda, həm də incəsənət sahəsində sanballı uğur sahibidir.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Çörəyi "ikinci çörək"dən çıxanlar

### Tovuzda bu mövsüm 4500 hektarda kartof əkilib, məhsuldarlıq 300 sentnerdən çoxdur

**Kartofçuluq Tovuz rayonunda ənənəvi sahələrdən biridir və rayonun iqtisadi potensialının əsas hissəsini təşkil edir. Son illər rayonda kartofçuluğun inkişafı istiqamətində mühüm addımlar atılır. Fermerlər bütün vasitələrdən istifadə etməklə bu gəlirli ərzaq məhsulunun istehsalını artırmaq, əhalinin tələbatını ödəmək istiqamətində əllərindən gələni əsirgəmirlər.**

Bunun sayəsində keçən il rayon üzrə hər hektardan 295,6 sentner məhsul götürülərək ümumilikdə 164 min tondan çox məhsul istehsal edilmişdir. Təsərrüfat sahibləri bu il daha çox kartof istehsal etmək üçün bütün imkanları səfərbərliyə alıblar. 4492 hektarda kartof səpini aparan əkinçilər hazırda yığımla məşğuldurlar. Bu günə qədər 4126 hektarın məhsulu yığılmışdır. İlkin göstəricilər onu deməyə əsas verir ki, bu il məhsuldarlıq ötən ildəkindən çox olacaq. Hələlik bu göstərici 301,9 sentnerdir. Qeyd edək ki, kartof yığımına 6 min nəfərdən çox mövsümi işçi cəlb olunmuşdur. Hər bir işçinin orta hesabla günlük gəliri 20-23 manatdır.

Rayonda elə bir kənd yoxdur ki, orada kartof əkilməsin. Əyyublu, Alakol, Düz Qırıqlı, Dönük Qırıqlı, Qovlar, Çatax, Kirən, Qəribli, Yanıqlı və digər kəndlərdə əsasən xarici sortlar olan "Orkestra", "Arizona", "Anna Karaleva", "Aqriya", "Agila", yerli sortlardan isə "Telman", "Əmiri-600", "Vaqif", "Çənlibel", "Uğur", "Turan" əkilir.

Tovuz Aqrar İnkişaf Mərkəzinin direktoru Emin Eyvazovla söhbət zamanı məlum oldu ki, istehsal olunan məhsulun saxlanması üçün də lazımi şərait var. Hazırda rayonda 40-a yaxın soyuducu anbar fəaliyyət göstərir və kartof istehsalçıları bu anbarların gücündən maksimum istifadə etməyə çalışırlar. Onlar hər il yetişdirdikləri kartofu bu anbarlara yığıb saxlayır, qış mövsümündə həm əhalinin kartofla təminatını həyata keçirir, həm də daha çox qazanc əldə edirlər.



Hazırda Tovuzda kartof əkini ilə məşğul olan və yığılmış kartofu saxlamaq üçün öz soyuducusu olan fermerlər çoxdur. Düz Cırdaxan kəndindən olan fermer Kamal Ələsgərovun 3, Əyyublu kəndindən olan fermerlərdən Nəsrəddin Aslanovun 2 tonluq, Şəhadət Mehralıyevin 400, Elxan Hüseynovun 600 kiloqramlıq soyuducu anbarları var. Onlar bu anbarlarda saxladıqları məhsulu növbəti məhsul yığımınadək saxlaya bilirlər.

Tovuz Aqrokompleks MMC-nin isə soyuducu anbarı 10 min tonluqdur. Şirkətdə hər il 32,6 hektarda "Silvana" və "Arizona" sortlu kartof əkilir. Bundan başqa, "Azəraqrar Dövlət İstehsalat və Emal Birliyi" MMC hər il 92,8, Aqrokimya MMC 43,9 hektarda əkdikləri kartofdan xeyli qazanc götürürlər. Ümumiyyətlə, rayonda kartofçuluğun inkişafına böyük diqqət yetirilir. Bu işdə rayonda fəaliyyət göstərən fiziki şəxslər də fəallıq göstərirlər. Onlardan Bozalqanlı kəndindən Ədalət Məhərrəmov 15, Dönük Qırıqlı kəndindən Ziyad İsgəndərov 23, Qovlar şəhəri ərazisində 21, Düz Qırıqlı kəndindən Nazilə İmamverdiyeva 14 hektarda kartof əkib becərirlər.

Rayonda ən çox karof əkən fermerlərdən biri də Bozalqanlı kənd sakini Kamal Ələkbərovdur. Təxminən hər il 100 hektarda kartof əkən təsərrüfat sahibi mövsüm ərzində 200 nəfəri işlə təmin edir. Onun əkin sahələri müasir çiləyici aqreqatlarla təmin olunub. Bundan başqa, 3 tonluq soyuducu anbar da inşa etdirib.

Onu da qeyd edək ki, əvvəlki illərdən fərqli olaraq bu il rayonda kartofun çıxarılması əsasən texnikanın vasitəsilə həyata keçirilir. Əl əməyinin azaldılması isə məhsulun maya dəyərini aşağı salır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Naxçıvanda vergi ödəyicilərinə xidmət mərkəzlərində 27 mindən çox şəxs qəbul edilib

**Cari il yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinə xidmət mərkəzləri tərəfindən ümumilikdə 27 min 552 şəxs qəbul edilib.**

Dövlət Vergi Xidmətindən bildirilib ki, mərkəzlərdə vergi qanunvericiliyi və inzibatçılığı ilə əlaqədar sualların cavablandırılması, vergi uçotu, qeydiyyat, bəyannamələr, cari vergi ödəmələri və digər məsələlərlə bağlı 37 min 784 xidmət göstərilib. Bu ötən ilin eyni dövrü ilə müqayisədə 13,1 faiz çoxdur.

Ümumi xidmətlərin 86 faizini 9 xidmət növü (şifahi və hazır sənədlərin verilməsi ilə bağlı xidmətlər istisna olunmaqla) təşkil edib.

Bu ilin yanvar-iyul aylarında vergi ödəyicilərinə 662 min 75 məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub) göndərilib. Dövr ərzində vergi ödəyiciləri ilə 69 görüş keçirilib, 277 sayda ünvanlı xidmət göstərilib. Həmin dövrdə 2082 müraciət üzrə 3700 "ASAN İmza" sertifikatı verilib.

## Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunda təmir işləri aparılır

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən "Böyük İpək yolu"nun tərkib hissəsi olan M2 Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunda təmir işləri aparılır. Əsaslı təmir işləri M2 magistralının 15-117 km-lik hissəsini əhatə edir.**

Hazırda təmir işləri yolun 97.7-ci km-dən 104.5-ci km-dək olan hissəsi üzrə icra olunur. Bu çərçivədə zəruri yerlərdə qazma və dolğu işləri aparılmaqla yeni torpaq yatağının inşası, deformasiyaya uğramış köhnə asfalt-beton örtüyünün üst qatının frezlənərək kənara daşınması işləri yerinə yetirilir. Texnoloji ardıcıllığa uyğun olaraq, daha sonra aşınma qatı olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi və hərəkətin normal təşkili üçün üfüqi nişanlanma xətlərinin çəkilməsi işləri aparılacaq.

Yenidənqurma işləri "İnşaat Norma və Qaydaları"na uyğun şəkildə, tərtib olunmuş qrafiklə sürətlə və keyfiyyətlə aparılır. Tikintinin tərtib olunmuş qrafikə uyğun zamanda yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.








# Gənclik







12 Avqust Beynəlxalq Gənclər Günüdür

# Azərbaycan gəncləri həyatın bütün sahələrində örnəkdirlər

**Azərbaycan gəncləri milli dövlətçiliyin, ölkəmizin ərazi bütövlüyünün qorunmasında, xüsusən də 30 ildən artıq işğal altında olan torpaqlarımızın erməni silahlı birləşmələrindən azad edilməsində böyük fəallıq göstəriblər. İndi bu gəncliyin səsi-sorağı erməni vandalizmi nəticəsində xarabazarlığa çevrilmiş Qarabağdan və Şərqi Zəngəzurdan gəlir, onlar geniş vüsət alan tikinti-quruculuq işlərində fəal çalışırlar.**

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində milli dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilən və böyüyən gənc nəsil xalqımızın rifah halının yaxşılaşmasında, həyatın bütün sahələrində ölkənin iqtisadi qüdrətinin inkişafında əlindən gələni edir. Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, gənclər hər bir xalqın gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir.

Müasir dövrdə gənclər elm, təhsil, səhiyyə və idman sahəsində olduğu kimi, dövlətin iqtisadi potensialının artırılmasında, habelə quruculuq və ictimai-siyasi proseslərdə də örnəkdir. Ölkəmizdə əhalinin 60 faizdən çoxunu gənclər təşkil edir. Onlara diqqət və qayğının dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilməsi bu təbəqəyə yüksək etimaddan irəli gəlirlər. Belə bir uğurlu siyasətin bariz nümunəsi, dövlətin gənclərə, gənclərin isə dövlət başçısına olan inam və etimadı 2020-ci il İkinci Qarabağ savaşında özünü daha qabarıq büruzə verdi. Minlərlə Azərbaycan gənci qorxmadan, çəkinmədən ən çətin döyüşlərə atıldı, yüzlərlə yeniyetmə könüllü olaraq cəbhəyə yollandı. Milli dövlətçiliyə sədaqətli, Prezidentinə güvənli vətənpərvər gənclərin şücaəti hamını heyran etdi. Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"unun Zəfərində, 30 ilə yaxın erməni əsarəti altında olan Azərbaycan torpaqlarının işğaldan azad edilməsində vətənpərvər gənclərin birliyinin şahidi olduq. Azərbaycan gəncləri 2020-ci il sentyabrın 27-də başlanan və 44 gün çəkən Vətən müharibəsindən qələbə ilə çıxdılar.

Azərbaycan gəncliyi bu gün daha qürurlu və məğrurdur. Çünki Vətənə sevgi, məhəbbət, düşmənə nifrət hissi ilə böyüyən gənc nəsil Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızı işğalçılardan azad edərək Azərbaycanın hərb tarixinə yeni səhifələr yazmış, xalqımıza əvəzsiz sevinc bəxş etmişdir.

İndi vətənpərvər gənclərimiz mənfur düşməndən azad etdikləri, minlərlə şəhid və qazinin qanı axıdılmış müqəddəs torpaqlarda tikinti-quruculuq işlərində əvəzsiz xidmətlər göstərirlər. Qürurverici haldır ki, işğaldan azad edilmiş bəzi yaşayış məntəqələrinə, o sıradan Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, Laçın şəhərinə və rayonun Zabux, Sus kəndlərinə, Füzuliyə, Şuşaya, Xocalıya, Ağdərəyə, Suqovuşana, Cəbrayıla, Ağdamın Xıdırlı kəndinə və digər ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışı daha da kütləviləşib. Bu ilin sonunadək Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı, Ağdam və Şuşa şəhərlərinə təxminən 20 min nəfərin qayıtması nəzərdə tutulub.

Məmnunluq doğuran odur ki, Azərbaycan gəncliyi Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə yaradılmış Qərbi Azərbaycan İcmasının həyatında da fəallıq göstərir. İctimai-siyasi fəaliyyəti ilə gündəmdə olan Qərbi Azərbaycan İcması, o cümlədən icmanın Gənclər Birliyi vaxtilə erməni vandalizmilə üzləşən, dədə-baba yurdlarından zorla qovulan qaçqınların, köçkünlərin, deportasiyalara məruz qalan insanların beynəlxalq qanunlar çərçivəsində pozulmuş hüquqlarının bərpasına çalışır. Soydaşlarımızın öz yurdlarına geri qayıtması uğrunda apardığı haqq mübarizəsində gənclərin daha yaxından iştirak etməsi çox böyük önəm daşıyır. Azərbaycan gəncliyi istər ölkə daxilində, istərsə də xaricdə bu mübarizəyə dəstək verəcək kifayət qədər gücə və əzmə malikdir.

Qərbi Azərbaycanəsilli gənclər inanırlar ki, ölkəmizin rəhbərinin qətiyyəti sayəsində günlərin birində onlar da əzəli ata-baba yurdlarına qayıdacaqlar. Bunu həm də soydaşlarımızı Qərbi Azərbaycana addım-addım yaxınlaşdıran hadisələr, keçirilən tədbirlər, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına ünvanlanan bəyanatlar, müraciətlər deməyə əsas verir.



Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, onların sağlam və vətənpərvərlik ruhunda böyüməsini təmin etmək, müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, habelə gənclərin dövlət idarəçiliyində rolunu artırmaq Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqətindədir. Şəhid ailələrinə və qazilərə xüsusi qayğı göstərilməsi, respublikamızın idman şərəfini qoruyan gənclərin mükafatlandırılması, yeniyetmə oğlan və qızlara müxtəlif ixtisaslara və peşələrə yiyələnmək üçün zəruri şəraitin yaradılması, ümumiyyətlə, gənclərin təhsil və sosial həyat şəraitinin yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür. Bu mənada Azərbaycan Prezidentinin iyulun 24-də "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması" və "Doktorantura, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında", habelə "Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikası ali məktəbləri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" sərəncamları dediklərimizə bariz nümunədir.

Milli Məclisin deputatı Tamam Cəfərova mətbuata açıqlamasında bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanmış iki mühüm sənəd - "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" 2019-cu il 14 fevral tarixli 961 nömrəli sərəncama edilən dəyişiklik və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli fərmana edilən əlavə və dəyişikliklər Azərbaycan dövlətinin təhsilin bütün pillə və səviyyələrində oxuyan tələbələrə göstərdiyi sistemli və ardıcıl qayğının bariz nümunəsidir. Sözügedən sənədlərlə 2025-ci il sentyabrın 1-dən etibarən Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün Prezident təqaüdünün məbləği 270 manatdan 350 manata yüksəldilib. Bununla yanaşı, doktorantlara, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən digər dövlət təqaüdləri də artırılıb. Bütün bunlar təhsil alan gənclərin sosial rifahının yaxşılaşdırılması, onların maddi təminatının gücləndirilməsi və təhsilə maraqlarının artırılması istiqamətində atılmış əhəmiyyətli addım kimi dəyərləndirilməlidir.

Gənclər dövlət siyasətində strateji hədəf qrupu kimi müəyyən olunur və onların inkişafı, təhsili və cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzində saxlanılır. Bu baxımdan da təqaüdlərin artırılması ilə bağlı verilmiş qərarlar dövlətin gənclərə olan inamının, onların intellektual potensialına göstərilən siyasi və mənəvi dəstəyin real ifadəsidir. Bu istiqamətdə ardıcıl olaraq həyata keçirilən islahatlar, maddi stimullaşdırma mexanizmlərinin genişləndirilməsi və təhsil alan şəxslərin rifahının yüksəldilməsinə yönəlmiş qərarlar ölkənin gələcək inkişaf strategiyası ilə uzlaşdırılır. Təqaüdlərin artırılması da məhz bu strateji baxışın davamı və konkret təzahürüdür.

Qlobal miqyasda insan kapitalının gücləndirilməsi rəqabətqabiliyyətli dövlətlərin əsas inkişaf meyarına çevrilib. Bu kontekstdə təhsil alan gənclərə verilən maddi dəstəyin artırılması onların bilik və bacarıqlarının daha səmərəli inkişaf etdirilməsinə imkan yaradır. Məhz bu baxımdan təqaüdlərin məbləğinin artırılması təkcə sosial dəstək tədbiri deyil, eyni zamanda elmi, texnoloji və iqtisadi sahələrdə ixtisaslaşmış kadrların formalaşmasına yönəlmiş kompleks tədbirlər sisteminin bir hissəsidir. Təhsil sahəsində dövlətin həyata keçirdiyi təqaüd siyasəti həm də sosial ədalətin təmin olunmasına yönəlib. Aztəminatlı ailələrdən olan tələbələrin keyfiyyətli təhsilə əlçatanlığının artırılması, onların təhsil xərclərinin qismən kompensasiya olunması dövlətin sosial rifah siyasətinin mühüm komponentlərindən biridir. Təqaüd məbləğlərinin artırılması bu baxımdan da böyük əhəmiyyət kəsb edir.

Milli Məclisin deputatı daha sonra deyib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil siyasəti milli inkişaf modelinin əsas dayaqlarından biri olaraq gələcək nəsillərin bilikli, vətənpərvər və yüksəkixtisaslı kadrlar kimi formalaşmasına xidmət edir".

Görünən odur ki, dövlət səviyyəsində göstərilən diqqət və qayğıya rəğmən ölkəmizin gəncləri savadlı, sağlam və vətənpərvər ruhda böyüyür, onlara göstərilən etimadı layiqincə doğruldurlar.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

Gələcəyə dəstək

# Arzu məqsədə çevriləndə

**Hər uğur yeni bir uğura körpü olmalıdır. Yoxsa inkişaf etmək, qarşına qoyduğun məqsədə çatmaq mümkün deyil. Gənc tədqiqatçı Edqar Şahbazov da qazandığı bütün uğurlara belə çatır.**



Bəlkə də uğurlarının əsas səbəbi seçdiyi sahəni daha dərindən öyrənməyə tükənməz marağıdır. "Mən ümumən biokimyanı xilas yolu kimi görürəm. Miqyasından asılı olmayaraq, istənilən problemi onunla həll etmək mümkündür" deyir.

Edqar Şahbazov 2002-ci il aprelin 9-da Qusar rayonunda dünyaya gəlib. Orta təhsilini Qusar şəhər Bəhruz Ağaverdiyev adına 1 saylı tam orta məktəbdə alıb. Oxuyub öyrənməyə kiçik yaşlarından maraq göstərib. Dərs əlaçısı olub. Ancaq onun öyrənmək marağı orta məktəb dərslikləri ilə məhdudlaşmayıb.

Uşaqlıq illərindən valideynləri ona çoxlu kitab alıblar. Müxtəlif mövzulardan, hər sahədən bəhs edən həmin kitabları böyük həvəslə mütaliə edən Edqar deyir ki, bəlkə də bu, onda ümumi dünyagörüşü formalaşdırıb. Atası Cavanşir Şahbazov fərdi sahibkar, anası Olqa Şahbazova isə dilçidir. Edqara ingilis və rus dillərini anası öyrədib. Onlar elmə və istedadlı insanlara son dərəcə hörmət, ehtiram bəsləyən insanlardır. Edqarın təhsilə, elmə istiqamətlənməsində ailəsinin böyük rolu olub. Valideynləri onun yüksək səviyyədə təhsil alması üçün əllərindən gələni əsirgəməyiblər. Edqar Şahbazova ən böyük mənəvi dəstəyi də uşaqlıq illərindən ata-anası verib.

Təhsil aldığı orta məktəbin seçilən şagirdlərindən olan Edqar dərslərini yaxşı oxuması, fəallığı, ən əsası, istedadı ilə müəllimlərinin rəğbətini qazanıb. Onun uzun, mürəkkəb reaksiyaları yadda saxlamaq, böyük formulları xatırlamaq bacarığı var. Edqarın elmə marağını, istedadını görən müəllimləri onun gələcəyinə inanıblar. Edqar Şahbazov hələ orta məktəb illərindən müəllimlərinin ümidini, inamını doğrultmağa başlayıb - 2019-cu ildə Respublika kimya olimpiadasının regional turunun qalibi olması ilə...

Həmin il Qusar şəhər 1 saylı tam orta məktəbi əla qiymətlərlə bitirən Edqar arzularını reallaşdırmaq üçün paytaxta gəlib: "Uşaqlıqdan dəqiq elmlərə xüsusi marağım olub. Arzum biokimyaçı olmaq idi. Çünki elmdə idealım olan İsrailin ilk prezidenti Xaim Veysman (Chaim Weizmann) məşhur biokimyaçı idi. Bakı Dövlət Universitetinin Biologiya fakültəsində təhsil almaq mənim arzumu gerçəkləşdirmək istiqamətində ilk addımım idi".

Edqarın arzularını həyata keçirmək yolunda ilk addımları uğurlu olub. Ali məktəbdə də əla qiymətlərlə oxuyan Edqar Şahbazov Bakı Dövlət Universitetində bakalavr təhsilini 91, magistratura təhsilini 99,4 göstərici ilə başa vurub. Bu il isə fakültədə magistrlik dissertasiyası 100 balla qiymətləndirilən yeganə məzun olub.

Diplom işini antibiotiklərin biokimyası haqqında yazıb. Qarşısına qoyduğu məqsədə çatmaq üçün 2023-cü ildə İsrailin Yerusəlim İbrani Universiteti və Bakı Dövlət Universiteti arasında beynəlxalq ikili diplom proqramına müraciət edib və arzusuna çatıb - "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində BDU ilə İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında "Biotexnologiya" ixtisaslaşması üzrə həyata keçirilən beynəlxalq ikili diplom proqramının tələbəsi olub: "Həm Azərbaycanda, həm də İsraildə biotexnologiya və molekulyar biologiya haqqında nəzəri və təcrübi biliklər topladıqdan sonra elmi rəhbərlərim akademik İradə Hüseynova və Dr.Doron Shkolniklə bərabər, "Qarabağ-11" pambıq sortunun duza davamlılığının tənzimlənməsində kalsium ionlarının rolunu araşdırmağı qərara aldıq. Biz ilk dəfə 3 müxtəlif transkripsiya faktorunun (MYB4, NAC90, ERF027) bu prosesdə rolunu aydınlaşdırdıq. Bu işlərlə bərabər, İsraildə təhsil alarkən, neyrodegenerativ xəstəliklər xüsusi diqqətimi çəkdi və bu sahədə məşhur alimlərin işlərini araşdırmağa başladım. Və bu ilin martında axtardığım, arzusunda olduğum laboratoriyanı tapdım - Böyük Britaniyanın Mançester Universitetində Dr. Gino Poulinin və Dr. Alan Whitmarshın laboratoriyası. Təəssüf ki, Azərbaycanımızda neyrodegenerativ xəstəliklər geniş yayılıb, bu həm cəmiyyətimizə, həm də iqtisadiyyatımıza neqativ təsir göstərir. Lakin effektiv tədqiqatlar bu problemləri kökündən həll edə bilər. Buna görə də həm öz arzuma çatmaq, həm də vətənimə layiqli xidmət etmək üçün bu sahədə tədqiqat aparmağı qərara aldım. Biz İngiltərədə məhz yaşlılıqda bu prosesləri mitoxondri səviyyəsində öyrənəcəyik".

Amma Edqarın elmi uğuru təkcə bu deyil. Bakı Dövlət Universitetinin Biologiya fakültəsinin magistrantı, beynəlxalq ikili diplom proqramının iştirakçısı Edqar Şahbazov bu il dövlət proqramı çərçivəsində Böyük Britaniyanın nüfuzlu ali təhsil müəssisələrindən olan Mançester Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsinin "Molekulyar biologiya" ixtisası üzrə doktorantura proqramına qəbul olub. Gənc tədqiqatçının doktorantura mərhələsində araşdıracağı "Qocalmanın qarşısını alan RBBP5 faktorunun mitoxondrial tarazlığın qorunmasında yeni rolu" mövzusu Mançester Universitetinin tanınmış alimləri Gino Poulin və Alan Whitmarshın elmi rəhbərliyi altında universitetin laboratoriyalarında həyata keçiriləcək.

Edqar gəncliyə xas olan coşqu ilə, ümidlə, inamla biokimya sahəsində görmək istədiyi, arzusunda olduğu məsələlərdən belə söz açır: "Gələcəkdə Azərbaycanda da böyük tədqiqat, müayinə və müalicə ilə məşğul olan biokimya mərkəzi qurmağı düşünürəm - beynəlxalq səviyyədə, bildiyimiz tədqiqat mərkəzlərindən kəskin fərqlənən bir mərkəz. Bu haqda müsahibəmdə də ekspertlərə danışmışdım".

Gələcək Edqar Şahbazov kimi vətənpərvər, istedadlı və məqsədyönlü gənclər üçün yalnız xoş xəyal deyil. Arzusunda olduğu, hədəfə çevirdiyi işləri həyata keçirmək üçün nəzərdə tutduğu zamanın özüdür. Edqar Şahbazovun fikrincə, həmin zamana istədiyin kimi çatmaq üçün hər gününü səmərəli keçirmək, yorulmaq, usanmaq bilmədən çalışmaq lazımdır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

İstedadlar

# "Qızım, sən əsl dram aktrisasısan"

**Səsində qəribə bir yanğı var. Adama elə gəlir ki, o danışmır, incə, kövrək səslə həzin bir musiqini zümzümə edir. Yaxud dərin, mənalı gözlərində yaş görünməsə də, için-için ağlayır...**

Yox, o ağlamırdı, bizə taleyini danışırdı: "Ailədə 5 uşağıq. 10 yaşım olanda atam rəhmətə getdi. Bizi anam böyüdüb. Arif əmim sağ olsun. Qoymurdu ki, korluq çəkək, bizə atalıq edirdi. Amma atamızın yeri görünürdü. Qız uşağı uçun bu, çox böyük itkidir".

Onun həyatı bir teatr tamaşasına bənzəyir. Sanki özü haqqında yox, səhnə həyatı verdiyi obrazdan bəhs edir. "Orta məktəbdə oxuyanda məni tanıyanlar elə zənn edirdilər ki, rəssam olacağam. Müəllimlərim mənə "rəssam qız" deyirdilər. Könlümdən isə modelyer olmaq keçirdi. Aktrisa olmaq barədə heç düşünmürdüm. Bircə özüm üçün onu dəqiqləşdirmişdim ki, ömrümü incəsənətə bağlayacağam. Böyüklərim isə məni incəsənət sahəsinə yaxın buraxmaq istəmirdilər. 2010-cu ildə orta məktəbi bitirdim".

Həmsöhbətimiz Bakı Bələdiyyə Teatrının gənc aktrisası Əzizə Həşimovadır. O, 1992-ci il martın 12-də Şirvanda anadan olub, Salyan rayon Həsən Şahbazov adına Kərimbəyli kənd orta məktəbini bitirib. Əzizə deyir ki, evdə desəydim ki, məni Bakıya aparan öz arzumdur, buna imkan verməyəcəkdilər: "Nə isə etməliydim ki, Bakıya gəlişimə icazə versinlər. Dedim ki, kompüter kursunda oxumaq istəyirəm. Bu bəhanə ilə Bakıya gəldim". Sonra Əzizə xanım onu aktrisalığa aparan yoldan söz açır: "Əməkdar artist, professor Azad Şükürovla sosial şəbəkədən tanış olmuşduq. Onun yaradıcılığını izləyirdim. Bakıya gələndən sonra Azad müllimdən xahiş etdim ki, dərslərində iştirak etmək üçün mənə şərait yaratsın. O da icazə verdi". Sonra da davam edir: "Yeniyetməlik yaşımda arada evdə zümzümə etməyim də var idi. Bəzən mahnı oxuduğum da olurdu. Qonşumuz Ülkər müəllimə səsimi eşidib anama deyirdi ki, Əzizənin gözəl səsi var. İmkan versəniz yaxşı müğənni ola bilər. Kimə deyirsən,



nə deyirsən? Kim idi məni müğənni olmağa qoyan? Bu arada Bakıda kompüter kursunda oxuyanda Mənsum İbrahimovun da dərslərinə gedirdim. Məqsədim müğənni, xanəndə olmaq yox, muğamlarımızı öyrənmək idi. Orada bəzi təsnifləri, eləcə də "Mirzə Hüseyn" muğamını da öyrənmişdim. Bir gün Azad müəllim mənə dedi ki, Əzizə, səndən yaxşı dram aktrisası olar. O, mənə Əbilov adına Mədəniyyət Mərkəzinə getməyi məsləhət bildi. Bir müddət bədii rəhbər Mirələsgər müəllimin rəhbərliyi ilə "Qağayı" ansamblında solist oldum. "Azərbaycan", "Ay gözəl", "İntizar" mahnılarını oxudum. Əslində, bu yol məni heç özüm də bilmədən İncəsənət Universitetinə, aktrisalığa aparırmış. Zəhmətim də hədər deyilmiş. Qabiliyyət imtahanı verəndə əməlli karıma gəldi. Cənnət Səlimova mənə dedi ki, bir etüd göstər, biz feyziyab olaq. Etüd edəndə ürəyimdə "İntizar"ı zümzümə edirdim. Cənnət xanım bunu duyubmuş. Mənə dedi ki, indi ürəyində oxuduğun mahnını ifa et. İfamı çox bəyəndilər".

Əzizə Həşimova orta məktəbi bitirəndən 6 il sonara 2016-cı ildə İncəsənət Universistetinə qəbul olunur. 2016-2019-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram və kino aktyorluğu fakültəsində təhsil alır. İkinci kursu bitirəndə "Ata ocağı" serialının seçim mərhələsinə dəvət alan aktrisa Aynurə obrazını canlandırır. Beləliklə, Əzizənin kino həyatı başlayır.

Əzizə deyir ki, dördüncü kursda oxuyanda səhnə danışığı müəllimi Mahirə Yaqubova teatrda işləmək istəyib-istəmədiyini öyrənib. Cavabı müsbət olub.

2019-cu ildə Bakı Bələdiyyə Teatrında "Xilaskar" tamaşasında nişanlı qız obrazını yaratmaqla səhnəyə çıxan aktrisa "Şuşada ürəyim qaldı" tamaşasında rəqqasə obrazını, "Xan qızı" əsərində müəllimə, "Sən qayıdacaqsan"da rəssam qız, "Nizami"də qəzəl deyən qız, "Vəfa"da ana obrazlarından birinə səhnə həyatı verdi.

Gənc aktrisa deyir: "Aktrisa olduğum üçün peşman deyiləm. Bəzən düşünürəm ki, elə anam məni bu sənət üçün dünyaya gətirib. Yaşadığım bu illər məni aktrisa olmaq üçün yetişdirib".

Aktyorluq sənətindən danışan Əzizə Həşimova deyir: "Bu, elə bir sənətdir ki, bağlandınsa, qopmaq olmur. Kim məşhur olmaq, tanınmaq istəmir ki?! Bir də görürsən küçədə kimsə gəlib doğması kimi salam verir, əhvalını soruşur. Sənə qayğı, diqqət göstərir. O an nə qədər problemin olsa belə unudub səni xalqa tanıdan, sevdirən sənətinə köklənirsən. Bu sənət insanlara necə olmağı öyrədir, yol göstərir. Öz eybini səhnədə görən adam pis vərdişlərindən əl çəkir. Səhnənin gücü də bundadır".

Aktrisa deyir ki, teatr aktyora nizim-intizamlı olmağı, eyni zamanda özünə nəzarəti öyrədir, düşünürsən ki, xalq səni tanıyır, səndən yaxşı nə isə götürür.

Əzizə sənət uğurundan danışarkən deyir: "Vəfa" tamaşasının premyerasından sonra tamaşaçılardan kulisə gələnlər var idi. Tanınmış ziyalılarımızdan biri mənə dedi ki, "qızım, sən əsl dram aktrisasısan". Bu söz məni çox ruhlandırdı. Aktrisa olduğum üçün qürurluyam. Mənə elə gəlir ki, doğru yoldayam".

Gənc aktrisa teatrdan başqa bir neçə film, serial və reklamlara da çəkilib. O, "Sonuncu pərdə" bədii filmində aktrisa Solmazı, "Balıqçının qızı" və "Vəli olmasın, Əli olsun" bədii filmlərində aktrisa, Təhminə və Zaur serialında Firəngiz, "Dağıntılar altında"da Mələk, "Günahsız günahkar"da Leyli obrazlarına səhnə həyatı verib. Aktrisanın Asif Rüstəmovun "Şövkət" filmində yaratdığı həkim obrazı yaxın zamanlarda tamaşaçılara təqdim ediləcək. Filmin üzərində son tamamlama işləri gedir.

Sənət yollarında uğurlu addımlarını atan Əzizə Həşimovanın arzusu mədəniyyət tariximizdə obrazlar qalereyası yaradan bir aktrisa kimi qalmaqdır: "Çalışıram ki, uğurlu bir sənətkar olum".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Xocalının Xanyurdu kəndində daha 19 ailəyə evlərinin açarları təqdim olunub

**İşğaldan azad edilmiş ərazilərə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Böyük qayıdış davam etdirilir.**

Avqustun 11-də respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdamdan Xocalının Xanyurdu kəndinə yola salınıb. Doğma yurdlarına çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, 19 ailə olmaqla, 62 nəfər keçmiş məcburi köçkün doğma yurduna qovuşub.






Açarların təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər. Tədbirdə çıxış edən Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti publik hüquqi şəxsin icraçı direktorunun müavini Mahmud Əfəndiyev bildirib ki, işğaldan azad olunandan sonra təmir və bərpa işləri aparılan kənddə sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb. Elektrik, qaz, içməli su, rabitə xətləri çəkilib, yol infrastrukturu yenilənib. Yaxın vaxtlarda məktəb binası, uşaq bağçası, tibb məntəqəsi və digər sosial obyektlər istifadəyə veriləcək.

Ailələr açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
İlham Əliyev yeni tarix yazdı
Azərbaycanı güclü dövlətə çevirdi, müharibədə qələbə çaldı, Cənubi Qafqaza sülh gətirdi
Prezident İlham Əliyev rəsmi sosial şəbəkə səhifələrində ABŞ-yə işgüzar səfəri ilə bağlı paylaşım edib
Tramp sosial mediasında Azərbaycan və Ermənistanla bağlı 20-dən çox paylaşım edib
İlham Əliyev Şavkat Mirziyoyevə zəng edib
İlham Əliyev Rəcəb Tayyib Ərdoğana zəng edib
Dünyanın diqqətində olan sülh sammiti
Azərbaycan-Sinqapur dostluq əlaqələrini inkişaf etdirmək yolunda birgə səylər davam etdiriləcək
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ölkəmizə gətirilmiş ukraynalı uşaqlara reabilitasiya xidmətləri göstərilir







**Ukraynadan ölkəmizə gətirilmiş daha 30 uşaq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətləri ilə əhatə olunublar.**

Mərkəzdə onlar ilk mərhələdə müayinədən keçirilib. Hər bir uşaq üçün fərdi reabilitasiya proqramı tərtib edilib. Emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarına dəstək məqsədilə uşaqlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri keçirilib. Onlara müalicəvi masaj, müalicəvi hovuz və vanna, art-terapiya və sair reabilitasiya xidmətləri göstərilir.

10 günlük sosial reabilitasiya proqramı çərçivəsində ukraynalı uşaqlar üçün asudə vaxtlarının maraqlı keçməsi üçün tarixi yerlərə, muzeylərə ekskursiyalar, stolüstü oyunlar və sair də təşkil olunub.

## Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı Səfirliyi tender elan edir

| Tenderin mövzusu | Tenderdə iştirak üçün şərtlər | Əməkdaşlığın şərtləri ilə bağlı forma (Səfirlik tərəfindən təqdim olunacaq) və qiymət təklifinin veriləcəyi məkan və əlaqə vasitələri | Qiymət təklifi təqdim olunması üçün son tarix | Görüş yeri və Zərflərin açılacağı tarix |
|---|---|---|---|---|
| Səfirliyin binasının təmiz saxlanılması, təmir və boya işlərinin yerinə yetirilməsi, həyətinə qulluq olunması, səfirliyin ərazisində və binasında həşəratlara qarşı tədbir görülməsi. | • Tələb olunan sahədə ixtisaslaşmış şirkət olmalıdır<br>• Bu sahədəki fəaliyyəti rəsmi şəkildə təsdiq olunduğuna və təcrübəsinə dair sənədlər təqdim edilməlidir. | Səudiyyə Ərəbistanı Krallığının Bakıdakı Səfirliyinin binası.<br>Telefonlar:<br>+994 50 441 88 64<br>+994 51 226 64 65<br>Emaillər:<br>**uruxovmahamad@gmail.com**<br>**beyaz.aslanova@bk.ru** | 18.09.2025<br>Saat:13:00 | Səfirliyin binası<br>19.09.2025<br>Saat 12:00 |

**Qeyd: Şərtləri ödəyən şirkətlərə işin mahiyyəti izah ediləcək və səfirliyin binası ilə tanış ediləcək.**

# Bombardmanda 6 jurnalist həlak olub

**Qəzza hökumətinin Media İdarəsinin bəyanatında deyilir ki, İsrailin bir gecədə mətbuat çadırına endirdiyi hava zərbəsi nəticəsində ölən jurnalistlərin sayı 6-ya çatıb.**

Açıqlamaya görə, ölənlər arasında "Sahat" media platformasından jurnalist Məhəmməd əl-Xalidi də var.

"Əl-Xalidi Qəzzada "Əş-Şifa" xəstəxanası yaxınlığındakı media çadırını birbaşa hədəfə alan İsrail ordusu tərəfindən həyata keçirilən dəhşətli qətliamda həlak olan 6-cı jurnalistdir", - deyə məlumatda bildirilir.




Beləliklə, 2023-cü il oktyabrın 7-dən davam edən hücum nəticəsində həlak olan jurnalistlərin sayı 238-ə çatıb. Daha əvvəl bildirilmişdi ki, "Əş-Şifa"ya hücum nəticəsində "Əl-Cəzirə"nin müxbirləri Enes əl-Şerif və Məhəmməd Quraika, həmçinin 3 operator həlak olub.

İsrail ordusu hücumda əl-Şerifin öldürüldüyünü etiraf edib. Eyni zamanda hərbçilər onun "HƏMAS hücrəsinin lideri" olduğunu və İsrailə raket hücumları planlaşdırdığını bildiriblər.

# Nigeriya ordusu 100-dən çox cinayətkarı zərərsizləşdirib



**Nigeriya ordusu Zamfara əyalətindəki əməliyyatlar zamanı quldur dəstələrinin 100-dən çox üzvünü zərərsizləşdirib. Bu barədə "Fansan Yamma" əməliyyatının qərargahından məlumat verilib.**

Əməliyyatda cinayətkarların mövqelərinə havadan və qurudan koordinasiyalı zərbələr endirilib, 100-dən çox dəstə üzvü, o cümlədən bir neçə dəstə lideri öldürülüb.

Zamfara əyaləti son vaxtlar silahlı quldur dəstələrinin fəaliyyətinin mərkəzinə çevrilib və bu, təhlükəsizliyin gücləndirilməsinə çağıran sakinlər arasında gərginliyin və etirazların artmasına səbəb olub.

Nigeriya silahlı dəstələrin, eləcə də İŞİD (ISWAP) və Boko Haram kimi terror təşkilatlarının təhdidləri ilə üzləşməkdə davam edir.

Ölkədə adam oğurluğu ölümlə cəzalandırılsa da, dəstələr mütəmadi olaraq şimal bölgələrində kəndlərə, məktəblərə və səyahətçilərə hücum edərək fidyə tələb edirlər.

# NATO-nun Baş katibi Alyaska danışıqlarını "Putin üçün sınaq" adlandırıb

**"Rusiya Prezidenti Vladimir Putin ABŞ Prezidenti Donald Trampla danışıqlar zamanı Ukraynadakı münaqişəyə həqiqətən son qoymaqda qərarlı olub-olmadığını göstərəcək". Bunu NATO-nun Baş katibi Mark Rütte deyib.**



Şimali Atlantika Alyansının rəhbəri ümid etdiyini bildirərək deyib ki, prezidentlər arasında görüş sülh prosesində mühüm addım olacaq. Onun sözlərinə görə, bu baş verərsə, ərazilərlə bağlı danışıqların başlanğıcı ola bilər.

"Məsələ atəşkəsdən sonra necə hərəkət etmək olacaq... Söhbət ərazi məsələsinə gəldikdə, onların gələcək sazişdə tanınmasına - Rusiyanın de-fakto Ukrayna torpaqlarının bir hissəsinə nəzarət etməsinə - bu, siyasi de-yure deyil, de-fakto tanınma olmalıdır", - Rütte ABC News-a müsahibəsində bildirib. O həmçinin qeyd edib: "Gələn cümə günü vacib olacaq, çünki bu, Putin üçün bir sınaq olacaq, görək o, bütün bu prosesə nə qədər ciddi yanaşır".

Alyaskada danışıqlar avqustun 15-nə planlaşdırılıb. Vladimir Putin və Donald Tramp Ukraynadakı münaqişənin həlli variantlarını müzakirə edəcəklər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bu günün hava proqnozu açıqlanıb

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, avqustun 12-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam yarımadanın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi axşam arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 21-24, gündüz 29-34 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 21-25, gündüz 30-35, dağlarda gecə 12-17, gündüz 20-25 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin baş məsləhətçisi Cahid Məmmədova anası
**ƏBABİL MƏMMƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və şöbənin əməkdaşları Mehdi Qurbanov, Ziya Qasımov, Şahin Quliyev, Həsən Şirinov, Emil İsmayılov, Seymur Əşrəfli və Gülarə İbrahimova iş yoldaşları Cahid Məmmədova anası
**ƏBABİL XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Türkan Vüsətqızına
**BACISININ**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin kollektivi iş yoldaşları
**AYDAN VÜSƏT QIZININ**
faciəvi şəkildə vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə əzizi
**İKRAM HÜSEYNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Orbita" MTK-nın rəhbəri Famil Bağıyev və kollektivi iş yoldaşları Fəxrəddin İmaməli oğlu Rəhimova bacısı
**SƏNUBƏR İMAMƏLİ QIZI QASIMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3823
Sifariş 1675

Qiyməti 60 qəpik